11 dekabr 2020-ci il
№42 (8906)

www.muallim.edu.az
muallim@edu.gov.az

# AZƏRBAYCAN MÜƏLLİMİ

*Təhsil millətin gələcəyidir!*
*Heydər Əliyev*

Azərbaycan Respublikası Təhsil Nazirliyinin orqanı



# Bakıda möhtəşəm Zəfər paradı

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Azadlıq meydanında paradlar çox keçirilib. Ancaq bu paradın xüsusi önəmi var. Bu, Zəfər paradıdır. Bu, tarixi hadisədir. Paradların birində mən demişdim ki, parada 2016-cı ildə Lələtəpə yüksəkliyində qaldırılmış bayraq gətiriləcək. Demişdim ki, gün gələcək və bu gün işğaldan azad edilən torpaqlarda qaldırılan Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və bu gün gəldi. Bu tarixi günün şahidi bizik, Azərbaycan xalqıdır. Biz bundan sonra ancaq və ancaq irəli gedəcəyik... Bu gün bütün dünya görür ki, Qarabağ Azərbaycandır! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır! Eşq olsun Azərbaycan Ordusuna! Yaşasın Türkiyə-Azərbaycan dostluğu, qardaşlığı! Yaşasın Azərbaycan əsgəri!

**Rəcəb Tayyib ƏRDOĞAN:**
**Türkiyə Respublikasının Prezidenti**

Hörmətli Qardaşım, əziz Azərbaycan xalqı. Türkiyə Azərbaycanın apardığı mübarizəyə ilk günlərdən bütün qurum və təşkilatları ilə dəstək vermiş, bütün imkanları ilə azərbaycanlı qardaşlarının yanında olmuşdur. Türkiyə olaraq Azərbaycan ilə münasibətlərimizdə özümüzə hər zaman böyük lider Heydər Əliyevin "Bir millət, iki dövlət" şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün dəqiq ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik. Bu anlayışla Qarabağı otuz il boyunca sinəmizdə yara etdik. Bu gün də bu yaranın sağalmasının sevincini paylaşmaq, bu şanlı zəferi birlikdə qeyd etmək üçün aranızdayıq.







# İtaliya-Azərbaycan Universitetində təhsil alacaq gənclər iki ölkə arasındakı əlaqələrə xüsusi töhfə verəcəklər

## Prezident İlham Əliyev İtaliya Deputatlar Palatasının sədr müavininin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

**İtaliyaya dövlət səfərim çərçivəsində, eyni zamanda, təhsil sahəsində əməkdaşlıq müzakirə olundu. İtaliya-Azərbaycan Universitetinin yaradılması ilə bağlı razılığa gəlmişik. Bakıya qayıdandan sonra mənim tərəfimdən bu məsələ ilə bağlı müvafiq göstərişlər verilmişdir. Hesab edirəm ki, yaxın gələcəkdə universitet üçün bina da inşa ediləcək. Mən bu məsələni diqqətimdə saxlayıram və mənə müntəzəm olaraq bu məsələ ilə bağlı məlumatlar verilir. Onu da bildirməliyəm ki, mənə verilən məlumat əsasında orada bir neçə fakültə fəaliyyət göstərəcək. O siyahıya baxanda gördüm ki, orada memarlıq fakültəsi yoxdur və təklif etdim ki, bu da əlavə olunsun. Çünki İtaliya memarlığı ümumbəşəri dəyərdir və ölkəmizdə geniş vüsət almış tikinti sektorunun əlbəttə ki, müasir görkəmi olmalıdır. Əlbəttə, İtaliya-Azərbaycan Universitetində təhsil alacaq gənclər iki ölkə arasındakı əlaqələrə xüsusi töhfə verəcəklər.**



# "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 684; 2011, № 2, maddə 70; 2014, № 1, maddə 3; 2015, № 11, maddə 1266; 2016, № 1, maddə 41, № 11, maddə 1766; 2017, № 2, maddə 145, № 5, maddə 691, № 7, maddələr 1277, 1300, № 12 (I kitab), maddə 2202; 2018, № 7 (I kitab), maddələr 1381, 1409, № 11, maddə 2208; 2019, № 5, maddə 798, № 7, maddə 1190, № 8, maddə 1382, № 11, maddə 1684, № 12, maddə 1881; 2020, № 5, maddə 508, № 6, maddələr 662, 669, № 7, maddələr 824, 830) aşağıdakı dəyişikliklər edilsin:

1. 1.0.36-cı maddə aşağıdakı redaksiyada verilsin:

"1.0.36. xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyası — xarici dövlətlərin səlahiyyətli orqanları tərəfindən verilən və verildiyi ölkədə ali təhsil pilləsinə qəbul olunmaq və ya ali təhsilin növbəti səviyyələri üzrə təhsilini davam etdirmək və (və ya) ixtisasına uyğun əmək fəaliyyəti ilə məşğul olmaq hüququ verən, həmçinin şəxsin müvafiq standartlara uyğun bilik, bacarıq, səriştə və təcrübəyə malik olduğunu təsdiq edən təhsil haqqında sənəd;".

2. 27.4-cü maddədə "Xarici ölkələrdə verilən təhsil haqqında sənədlərin" sözləri "Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının" sözləri ilə əvəz edilsin.

3. 29.0.21-ci maddə aşağıdakı redaksiyada verilsin:

"29.0.21. xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması qaydalarını müəyyən etmək və kvalifikasiyaların tanınmasını həyata keçirmək;".

4. 44.2-ci maddənin birinci cümləsində "xarici ölkələrin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası)" sözləri "xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması" sözləri ilə, ikinci cümləsində "xarici ölkələrin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsinə (nostrifikasiyasına), xarici ölkələrdə verilən təhsil haqqında sənədlərin" sözləri "xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 6 noyabr 2020-ci il*

# "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq **qərara alır:**

"Peşə təhsili haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 6, maddə 1152; 2019, № 5, maddə 799, № 6, maddə 986, № 11, maddə 1685; 2020, № 5, maddələr 508, 514, № 7, maddələr 831, 851) 1.0.9-cu maddəsində "səriştələrə, bacarıqlara" sözləri "bilik, bacarıq, səriştə və təcrübəyə" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 6 noyabr 2020-ci il*

# "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 6 noyabr tarixli 192-VIQD nömrəli Qanununun tətbiqi və Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamənin təsdiq edilməsi barədə" 2005-ci il 1 mart tarixli 203 nömrəli, "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli fərmanlarında və 2019-cu il 29 dekabr tarixli 907 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Təhsildə Keyfiyyət Təminatı Agentliyinin Nizamnaməsi"ndə dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 19-cu və 32-ci bəndlərini rəhbər tutaraq, "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 6 noyabr tarixli 192-VIQD nömrəli Qanununun qüvvəyə minməsi ilə əlaqədar həmin Qanunun tətbiqini təmin etmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

1.1. "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun 27.4-cü və 29.0.21-ci maddələrinə uyğun olaraq, xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması qaydalarını iki ay müddətində Azərbaycan Respublikasının Prezidenti ilə razılaşdırmaqla müəyyən etsin;

1.2. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2020-ci il 6 noyabr tarixli 192-VIQD nömrəli Qanunundan irəli gələn digər məsələləri həll etsin.

**2.** Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 1 mart tarixli 203 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 3, maddə 161, № 12, maddə 1102; 2007, № 10, maddə 947; 2008, № 11, maddə 970; 2009, № 12, maddə 983; 2010, № 2, maddə 83; 2011, № 2, maddə 85; 2012, № 4, maddə 291, № 6, maddə 531, № 9, maddə 854; 2016, № 11, maddə 1805; 2017, № 7, maddə 1355, № 12 (I kitab), maddə 2312; 2019, № 3, maddə 403, № 5, maddə 848, № 11, maddə 1718; 2020, № 7, maddələr 868, 895, № 9, maddə 1139) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

2.1. 8.27-ci bənddə "xarici ölkələrin ali təhsil sahəsində ixtisaslarının tanınmasını və ekvivalentliyinin müəyyən edilməsini (nostrifikasiyasını)" sözləri "xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasını" sözləri ilə əvəz edilsin;

2.2. 8.28-ci bənd aşağıdakı redaksiyada verilsin:

"8.28. xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasına dair sənədlər verir;".

**3.** "Təhsil haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2009-cu il 5 sentyabr tarixli 156 nömrəli Fərmanında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 9, maddə 685; 2012, № 3, maddə 197, № 4, maddə 289, № 6, maddə 532; 2016, № 1, maddə 76, № 11, maddələr 1804, 1828, № 12, maddə 2086; 2017, № 7, maddə 1360, № 10, maddə 1800, № 12 (I kitab), maddə 2313; 2018, № 2, maddə 216, № 12 (I kitab), maddə 2545; 2019, № 3, maddələr 403, 405, № 5, maddə 847, № 8, maddə 1398; 2020, № 5, maddə 549, № 7, maddə 868) aşağıdakı dəyişikliklər edilsin:

3.1. 1.23-cü bənddə "29.0.21-ci" sözləri "29.0.20-ci" sözləri ilə əvəz edilsin;

3.2. 2.2-ci bənddə "xarici ölkələrin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası)" sözləri "xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması" sözləri ilə əvəz edilsin;

3.3. 2.3-cü bənddə "(xarici ölkələrin ali təhsil sahəsində ixtisaslarının tanınmasının və ekvivalentliyinin müəyyən edilməsinin (nostrifikasiyasının)" sözləri "xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınmasının" sözləri ilə əvəz edilsin.

**4.** Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 29 dekabr tarixli 907 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2019, № 12, maddə 1950) ilə təsdiq edilmiş "Təhsildə Keyfiyyət Təminatı Agentliyinin Nizamnaməsi"ndə aşağıdakı dəyişikliklər edilsin:

4.1. 1.1-ci bənddə "təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası), xarici ölkələrdə verilən təhsil haqqında sənədlərin" sözləri "təhsilə aid kvalifikasiyalarının" sözləri ilə əvəz edilsin;

4.2. 2.2.2-ci yarımbənddə "təhsil sahəsində ixtisaslarının tanınmasını və ekvivalentliyinin müəyyən edilməsini (nostrifikasiyasını)" sözləri "təhsilə aid kvalifikasiyalarının tanınmasını" sözləri ilə əvəz edilsin;

4.3. 3.1.4-cü və 3.2.16-cı yarımbəndlərdə "təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası)" sözləri "təhsilə aid kvalifikasiyalarının tanınması" sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 8 dekabr 2020-ci il*

# "Bu günün gəncləri ölkənin qarşısında duran ən ümdə məsələləri həll etməyə qadirdirlər"




## Təhsil naziri Emin Əmrullayev media nümayəndələri ilə birlikdə bir sıra mühüm məqamlara aydınlıq gətirib

**"Təhsil" Televiziyası dekabrın 5-də "Təhsil naziri ilə söhbət"in davamını yayımlayıb. Verilişin qonağı olan Təhsil naziri Emin Əmrullayev media nümayəndələrini maraqlandıran sualları cavablandırıb, digər bir sıra mühüm məqamlara da aydınlıq gətirib. Qeyd edək ki, Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehovun aparıcısı olduğu verilişdə İctimai Televiziyanın əməkdaşı Vüsalə Məmmədova və 1 news. az informasiya agentliyinin baş redaktoru Rəhman Hacı iştirak ediblər.**

**Təhsil naziri ilə söhbətin II hissəsini oxucularımıza təqdim edirik.**

### Valideynin məktəbə kömək etmək hüququ və səlahiyyəti var

***Rəhman Hacı:***

*- Valideynləri narahat edən konkret məsələlər var. Misal üçün, mən həmin o sorğunu aparanda ən çox təkrarlanan suallardan biri də məktəblərdə korrupsiya ilə bağlı vəziyyət, müəllimlərin maaşlarının kifayət qədər yüksək olmaması və bundan irəli gələn motivasiyanın aşağı olması məsələləri idi. Sizin fikrinizcə, bu üç məsələdə - korrupsiya, müəllimlərin motivasiyası, ümumiyyətlə, müəllimlərin şagirdlərə münasibəti ilə bağlı etimadını necə qaldıra bilərik?*

**Emin Əmrullayev, Təhsil naziri:**

- Mənə elə gəlir ki, son hadisələr onu göstərdi ki, hər şeyə rəğmən bütün narazılıqlara baxmayaraq bu gün müstəqillik dövrümüzdə doğulan, böyüyən, məktəbi bitirən Azərbaycan gəncləri ölkənin qarşısında duran ən ümdə məsələləri həll etmək bacarığında və qabiliyyətindədirlər.

Baxmayaraq ki, təhsilimiz haqqında biz, ümumiyyətlə, çox narazı danışırıq, ancaq onu da qeyd edək ki, böyük məsələlərin həlli istiqamətində uğura malikik və dünyanın ən yaxşı universitetlərini bitirmiş kifayət qədər azərbaycanlılarımız var. Və həmin gənclərimiz haradasa, belə deyək də, xüsusi şəraitdə böyüməyiblər. Onlar da məhz bu şəraitin yetirməsidirlər. O ki qaldı sizin dediyiniz korrupsiyaya, burada bir mənəvi, ikinci yenə də qayda məsələləri var. Mənim baxışıma görə valideyn məktəbə pul ödəməyə məcbur edilməməlidir. Bu, düzgün deyil. Amma eyni zamanda, valideynin məktəbə kömək etmək hüququ və səlahiyyəti var və bu o qədər də xoşagəlməz hal kimi qiymətləndirilməməlidir. Sadəcə olaraq təsvir edə bilərəm ki, tutaq ki, bu hansısa bir irəlidə olan təhsil sistemində necə baş verir? Məsələn, adətən məktəblər hansısa məqsəd müəyyənləşdirir və öz icmasına müraciət edir ki, biz həyətdə olan idman meydançasını təmir etməliyik. Bunun üçün isə deyək ki, on min manat pul lazımdır. Artıq həmin məktəb istər valideynlərə, istər həmin icmada olan biznesə, istər özünün məzunlarına, istərsə də ölkədə idman sahəsi ilə məşğul olan QHT-lərə müraciət edir. O pul toplanır, hesabat verilir və nəticə etibari ilə idman meydançası təmir olunur. Və insanlar da özlərini xoşbəxt hiss edirlər. Bu, yeni terminologiyada fandreyzinq adlanır. Hətta məktəb direktorlarına fandreyzinqin necə aparılması ilə bağlı ayrıca təlimlər də keçirilir.

Bizim kontekstdə mənə elə gəlir ki, qeyd etdiyim ana prinsip bundan ibarət olmalıdır ki, hər hansı bir valideyn məktəbə pul ödəməyə məcbur edilməməlidir. Bu səhvdir, son dövrlərdə belə deyək də, il ərzində bir neçə direktor buna görə öz işindən azad edilib. Və belə hallar olarsa, biz buna qarşı tədbirlərimizi yenə davam etdirəcəyik.

**Son dövrlərdə ölkə rəhbərliyinin müvafiq sərəncamları ilə təhsil işçilərinin əməkhaqqısında əsaslı dəyişikliklər edilib. Müəllimlərin əməkhaqları son dövrdə ən çox artan əməkhaqlarından biridir. Demək olar ki, ölkə üzrə orta əməkhaqqına çatır.**

### Müəllim əməkhaqqısı son dövrdə ən çox artan əməkhaqlarından biridir

Müəllimlərin motivasiyası ilə bağlı ikinci sualınıza qısa cavab verməyə çalışacağam. Müəllimin motivasiyası və əməkhaqqısı arasında yəqin ki, böyük əlaqə var. Bilirsiniz ki, son dövrlərdə ölkə rəhbərliyinin müvafiq sərəncamları ilə təhsil işçilərinin əməkhaqqısında əsaslı dəyişikliklər edilib. Müəllimlərin əməkhaqları son dövrdə ən çox artan əməkhaqlarından biridir. Demək olar ki, ölkə üzrə orta əməkhaqqına çatır. Müəllim əməkhaqqısına, yəni onun miqdarına təsir edən faktorları düzgün başa düşməliyik.Çünki bizim təhsil sistemimiz hələ də sovet dövründən qalmış "stavka" sistemi ilə işləyir. Həmin sistem saata bağlıdır. Müəllimlər bir çox hallarda ona görə aşağı maaş alırlar ki, onların heç saatları çox yuxarı deyil.

Mənə elə gəlir biz təhsil sistemi olaraq son illərdə iki böyük uğura imza atmışıq. Bir Azərbaycanda şagird-müəllim nisbəti kifayət qədər yaxşılaşıb. Təxminən əvvəl 8 və ya 9 şagirdə 1 müəllim düşürdüsə, indi biz bunu 11-ə qaldıra bilmişik. Bu, nə deməkdir? Bu, müəllimlərin dərs yükünün də artması deməkdir. O cümlədən bir saata görə ödənilən əməkhaqqı da artıb. Yəni bu istiqamətdə işlər, mümkün dərəcədə iqtisadi belə deyək də, göstəricilər imkan verdikcə yəqin ki, davam edəcək.

Sualınızdakı digər məqama gəldikdə, müəllimin motivasiyası heç də digərlərində olduğu kimi həmişə əməkhaqqıya bağlı deyil. Mənə elə gəlir ki, qeyri-maddi həvəsləndirmələrin tətbiqi müəllimlərimizə daha çox motivasiya verə bilər.

### Ən yaxşı keyfiyyəti olan məktəblər qura biləcəyik

***Vüsalə Məmmədova:***

*- Torpaqlar işğaldan azad edildi və artıq hər kəs öz sahəsində hazırlıq işlərinə başlayıb. Müharibənin ağır illərində o əraziləri tərk edən övladlar təhsil hüququndan məhrum olundular və çox ciddi bir problemlə üz-üzə qaldılar. Bu, ötən əsrin sonları idi. Məcburi köçkün məktəblərin vəziyyəti heç vaxt qənaətbəxş olmayıb, məmnun olmamışıq. Bir keçmiş məcburi köçkün olduğuma görə bu məsələləri daha detallı bilirəm. Bu gün vaxtilə öz torpaqlarından məcburən didərgin düşən həmin insanlar artıq valideyn olaraq ora qayıdacaqlar. Biz həmin o qənaətbəxş olmayan məktəblərəmi geri qayıdacağıq? Və ya məsələyə nikbin yanaşsaq işğaldan azad edilən torpaqlarımızda təhsili hansı səviyyədə quracağıq ki, orada keyfiyyətli təhsilə təminat verək.*

**Emin Əmrullayev,Təhsil naziri:**

- Sualınız iki hissədən ibarətdir. Birinci məsələ odur ki, tikinti, geri qayıdış prosesi, bütün bu işlər kompleks həll olunacaq. Standart olaraq əhalinin altıda bir sayında biz məktəb tikintisini keçirdirik. Deyək ki, altı min sakini olan yerdə min nəfərlik məktəbə ehtiyac olur. Mən əminəm ki, ən yaxşı məktəblər tikiləcək. O ki, qaldı keyfiyyətlə bağlı bəlkə də kədərli bir hekayənin sonudur ki, işğal zamanı həmin torpaqlarda olan bütün məktəblər, infrastruktur dağıdılıb. Amma məsələnin müəyyən mənada yaxşı ardı, davamı ondan ibarətdir ki, biz hər şeyi sıfırdan başlaya bilirik. Düşünürəm ki, bu proses həmin o yerlərdən olan insanlar üçün də yeni imkanlar yaradacaq. İnanıram ki, həmin yerlərdə ən yaxşı keyfiyyəti olan məktəblər qura biləcəyik.

### Əvvəl məqsəd qoyulmalı, sonra ona uyğun infrastruktur qurulmalıdır

***Cəsarət Valehov:***

*- Beynəlxalq praktikada belə deyək, hətta məktəblərin infrastrukturu ilə bağlı yeni yanaşmalar var. Divarsız sinif otaqları, ümumilikdə tamamilə qurğulardan inşa olunmayan məktəblər və s. Bizdə ümumiyyətlə, məktəblərin infrastrukturu ilə bağlı bəlli bir təcrübə var, yəni planlama var. Növbəti planda bu infrastrukturda hansısa özəlliklər dəyişə bilərmi?*

*İkinci məsələ, mən sizi həm nazir olana qədər, həm də indi nazir olduğunuz vaxtda müşahidə etmişəm ki, ən çox ifadə etdiyiniz sözlərdən biri ölçülə bilən sözüdür. Və xatırlayıram ki, ötən ilin elə dekabr ayında sizin iştirakınızla PISA - Beynəlxalq Şagird Qiymətləndirilməsi Proqramının 2018-ci il üzrə nəticələrini biz elan etdik. Bu nəticələrdən çıxış edərək 15 yaşlı Azərbaycan gənci öz yaşıdlarından nədə geri qalır və ya əksinə, hansı məqamlarda ümidvericidir?*

**Emin Əmrullayev, Təhsil naziri:**

- Birinci sualla bağlı onu deyim ki, baxın, biz yenə də məqsədlə alətləri bir-birindən fərqləndirməliyik. Adətən niyə məktəblərdə yeni format, yəni, divarı götürürlər və yaxud stulları başqa cür bölürlər ? Bunlar təbii ki, kiminsə təxəyyülünə görə deyil, konkret tədqiqatlara əsaslanır. Həmin tədqiqatlar göstərir ki, məsələn, bu, öyrənməyə müsbət təsir edir. İnsanlar bir-biri ilə nə bilim ikili partada yox, tək partada oturanda tutaq ki, fərdilik daha çox inkişaf edir. İnfrastruktur təbii ki, büdcə ilə də bağlıdır.

Bizim kontekstdə bu, çox uğurlu bir layihə- modul tipli məktəblərdir. Biz hər il belə deyək də 30, 40, hətta bu il 60-a qədər modul tipli məktəbləri kiçik ərazilərdə tikə bilmişik. Bizim yeni məktəb modelimizdən danışanda məsələ burasındadır ki, bunlar hamısı bir-biri ilə bağlıdır. Birinci sual verirlər ki, məqsəd nədir? Tutaq ki, məqsəd öyrənməkdirsə, məsələn, 40-42 nəfərlik sinifdə bunu eləmək olarmı? Hə, Sinqapur bunu edir. Orada standart olaraq sinifdə ortalama 40 uşaq var. Onlar bunu edə bilirlər. Onların infrastrukturu buna uyğundur. Gələcəkdə biz də tutaq ki, düşünürüksə ki, daha çox böyükhəcmli siniflərlə gedəcəyik. Məsələn, 40 çox yaxşı rəqəmdir. O 2-yə, 4-ə, 5-ə və 8-ə bölünür və siz qruplar edə bilərsiniz. 24 rəqəmi də elədir. Məsələn, 2-yə, 3-ə, 6-ya, 8-ə bölünür və s. Yəni ilk növbədə biz nə istəyirik sualını müəyyən etməliyik, ondan sonra məktəbimizi tikməliyik. Əvvəl məqsəd qoyulmalı sonra ona uyğun infrastruktur qurulmalıdır.

**PISA -Beynəlxalq Şagird Qiymətləndirilməsi proqramı bizim üçün mayak rolunu oynamalıdır və bu nəticələr Azərbaycan təhsil işçiləri, bütövlükdə təhsil ictimaiyyəti, o cümlədən işə götürənlər, xüsusilə müəllimlərimizin qarşısında çox böyük bir vəzifələr qoyur. Biz Təhsil Nazirliyi olaraq yalnız təlimlər vasitəsi ilə onlara bu reallığı göstrməklə köməklik edə bilərik.**

### PISA -Beynəlxalq Şagird Qiymətləndirilməsi proqramı bizim üçün mayak rolunu oynamalıdır

O ki qaldı ikinci sualınıza, biz PISA, PIRLS və TİMSS beynəlxalq qiymətləndirmə tədqiqatlarında iştirak edirik. Məncə, bu, ölkəmizə böyük imkanlar verir ki, biz haradayıq. Çünki PISA-da soruşulan suallar insanlarda konkret bazara uyğun olan bacarıq və səriştələri ölçür. Biz isə məktəbdə daha çox hələ də özümüzün arzularımızı ölçürük ki, uşaqlar bizim arzularımıza nə qədər uyğundur yoxsa yox. PISA -Beynəlxalq Şagird Qiymətləndirilməsi proqramı bizim üçün mayak rolunu oynamalıdır və bu nəticələr Azərbaycan təhsil işçiləri, bütövlükdə təhsil ictimaiyyəti, o cümlədən işə götürənlər, xüsusilə müəllimlərimizin qarşısında çox böyük bir vəzifələr qoyur. Biz Təhsil Nazirliyi olaraq yalnız təlimlər vasitəsi ilə onlara bu reallığı göstrməklə köməklik edə bilərik.

*Davamı səhifə 4-də*

# "Bu günün gəncləri ölkənin qarşısında duran ən ümdə məsələləri həll etməyə qadirdirlər"



## Təhsil naziri Emin Əmrullayev media nümayəndələri ilə birlikdə bir sıra mühüm məqamlara aydınlıq gətirib

*Əvvəli səhifə 5-də*

### Davranış və qavrama çox vacib məsələdir

*- **Rəhman Hacı:** Bizim təhsilimizlə Avropanın və Amerikanın təhsili arasında bir neçə ciddi fərq var. Xüsusən də ali təhsildən söhbət gedəndə mən hardasa bir neçə çatışmamazlıq görürəm. Birincisi, bizim universitetlərimizdə və məktəblərimizdə tənqidi yanaşmaya daha çox ehtiyac duyulur. Sizin də qeyd etdiyiniz kimi biz artıq qeyri-müəyyənlik vaxtında yaşayırıq.Bu zaman tənqidi yanaşma daha da önəmli olur, onun vacibliyi atır. İkincisi, biz artıq " Big Data" dövründə yaşayırıq.Məlumatın sayı o qədər çox, həcmi o qədər böyükdür ki, artıq məlumatın birincisini tapmaq və sonradan təhlil etmək bacarığı böyük önəm daşımağa başlayır. Burada müəllimin, professorun rolu da dəyişir. Sizin fikrinizcə, biz nə qədər bu dövrün tələblərinə cavab veririk? Və ya biz əgər cavab vermiriksə bu yeni təhsil formatına necə daha operativ, çevik keçə bilərik?*

**Emin Əmrullayev,Təhsil naziri:**

**-** Mən bununla bağlı bir neçə məqama toxunmaq istərdim. Bir məsələ ondan ibarətdir ki, davranış, eyni zamanda qavrama çox vacibdir. O mənada ki, hər bir insan öz gələcəyi ilə bağlı tutaq ki, necə düşünür? Məsələn, insan var belə düşünür ki, onun bütün gələcəyini dövlət qurmalıdır. Daim belə bir hisslə yaşamağa davam edir. Mənim fikrimcə, təbii ki, bu, bizim sosialist keçmişimizdən gəlir. Bəzi hallarda insanlara səhv etdiklərini və o səhvləri göstərmək məncə, lazımdır. Belə ki, səhvlər özü də öyrənmək üçün çox vacib bir məqamdır. O mənada ki, uğur hekayələri və belə deyək, o qədər də uğurlu olmayan hekayələr arasında fərqə baxsaq həmin prosesi başa düşə bilərik.

Başqa bir məsələ məncə, seçimlə bağlıdır. Üçüncü, mənə elə gəlir o dəyişiklik üçün istiqamət ondan ibarətdir ki, həqiqətən də tələb olmalıdır. Yəni, tələb çox vacib məsələdir. Burada yaxşı xəbər nədir? Artıq tələb get-gedə qloballaşır. Məsələn, elmdən danışırıqsa, elmə olan tələb indi qlobaldır. Yəni, yaxşı elmi tədqiqatlara, elmi ideyalara malik olan insan hansı ölkədə yaşamağından asılı olmayaraq ona istənilən yerdə hər cür şərait yaratmağa, qrant verməyə, START UP layihələri üçün viza verməyə və s. hamı hazırdır. İstedadlı insanlarımızı burada saxlamaq üçün müəyyən mexanizmlər və modellər düşünməliyik. Və təbii ki, rahatlıqla narahatlıq seçimi arasında məncə, çoxlu müzakirələr aparmalıyıq. Çünki biz bəzən rahat həll yolları axtarırıq. Dəyişiklik ümumiyyətlə həmişə narahat bir prosesdir və nə qədər biz narahatlığımızı pozmağa hazırıq? Belə deyək də, cəmiyyət olaraq həmin o transformasiyanı bir yerdə keçməyə hazırıq sualı vacib olacaq. Məsələn, şərti olaraq biz bu günləri desək ki, gəlin birinci sinfə qəbul vaxtı hərə öz yaşadığı yerdə məktəbə getsin. Bu insanların kifayət qədər narazılığına səbəb olacaq. Məsələn, bizə nazirlik olaraq bu, çox asandır, çünki hər şeyi planlaşdıra bilərik, məktəblər tikiləndə və s. Səmimi olaraq deyim ki, məktəblərdə, siniflərdə şagird sayı da normallaşar.

Həqiqəti bilmək istəyirsinizsə heç də bu günləri ən çox belə deyək də, tələb olunan məktəblər ən yaxşı məktəblər deyil.- Yəni, reallıq budur ki, məsələn, biz PİSA tədqiqatından görürük ki, Bakının bütün məktəblərinin hər birində qrupda ən yüksək nəticə və eyni zamanda ən zəif nəticə göstərən şagird vardır. Fərqi yoxdur, bu lisey və ya gimnaziyadır. Sadəcə olaraq insanlar bəzən belə düşünürlər ki, filan müəllim daha yaxşıdır, mütləq uşaq onun yanına getməlidir. Hətta o müəllimi bir il belə gözləyən insanlar var. Övladının məhz həmin müəllimin sinfində təhsil almasını istəyir.

**Bütün dünyada ali təhsil əslində daha çox iqtisadi faktordur, nəinki təhsil faktoru. Bu, bir investisiyadır. Biz nə qədər investisiya qoyuruq, hansı bacarıqları öyrənirik? Sonra bunun müqabilində bütün həyatımız boyu həmin bacarıqları hissə-hissə satıb, necə deyərlər, gələcəyimizi təşkil edirik. Ona görə, biz ali təhsilə mənə elə gəlir ki, baxışımızı bu yöndən dəyişməliyik, daha çox ona əmək bacarığına bağlılığı baxımından yanaşmalıyıq.**

**Biz 44 gün davam edən Vətən müharibəsində gördük ki, insanlarımız Qarabağ məsələsində, torpaqlarımızın azadlığı uğrunda həqiqətən də vahid ola bildilər, ərazilərimizi işğaldan azad etmək üçün birləşməyi bacardılar. Gördük ki, biz onlara bunu öyrədə bilmişik.**

### Ali təhsil daha çox iqtisadi faktordur

*Vüsalə Məmmədova:*

*- Siz nazir kabinetinə auditoriyadan keçib gəlmisiniz. Azərbaycanın ali təhsil sistemində hansı müsbət və mənfi tərəflər var? Siz yəqin ki, bunu hamımızdan yaxşı bilirsiniz. Mən bir kənardan və eyni zamanda uzun müddət də içində olan biri kimi deyim ki, Azərbaycanda ali təhsil pilləsi çox sürətlə inkişaf edib. Açıq da görünür ki, bütün bu sahələrdə irəliləmək üçün universitetlər ayrı-ayrılıqda çox ciddi rəqabət mühitindədirlər, çalışırlar. Amma bütün bu cəhdlərin fonunda qiyabi təhsil çox bəsit görünür.*

**Emin Əmrullayev, Təhsil naziri:**

- Təhsil sistemləri artıq o qədər bir-birinə yaxınlaşıb, o qədər informasiya var ki, bir çox şeyi yenidən kəşf etməyə ehtiyac yoxdur. Yəni, onlar var və onları tətbiq eləmək çətindir. Çünki tətbiq daha çox insanların həyatını dəyişir və hər bir dəyişkənlik də müəyyən müqavimətlə üzləşir. Bu müqaviməti isə təbii ki, çox bərk qırmaq da mümkün deyil. Bəzi hallarda ünsiyyətə girib belə deyək də o dialoq vasitəsi ilə dəyişdirilməsi vacibdir. Ali təhsillə bağlı siz müsbət tərəflərdən danışdınız. Burada 2-3 vacib məsələ var. Birinci məsələ, məqsəd nədən ibarətdir. Məqsəd kağız parçasıdır yoxsa, bacarıqlardır? Bütün dünyada ali təhsil əslində daha çox iqtisadi faktordur, nəinki təhsil faktoru. Bu, bir investisiyadır. Biz nə qədər investisiya qoyuruq, hansı bacarıqları öyrənirik? Sonra bunun müqabilində bütün həyatımız boyu həmin bacarıqları hissə-hissə satıb, necə deyərlər, gələcəyimizi təşkil edirik. Ona görə, biz ali təhsilə mənə elə gəlir ki, baxışımızı bu yöndən dəyişməliyik, daha çox ona əmək bacarığına bağlılığı baxımından yanaşmalıyıq. Təhsilalanlar daha çox özlərinə sual verməlidirlər ki, onlar ətrafdakı adamların arzuladığı kimi olmaq istəyirlər, yoxsa həqiqətən də nəsə uğur əldə etmək həvəsindədirlər.

Qiyabi təhsil də təhsilin formasıdır, yəni biliyin öyrənilmə formasıdır ki, bunu auditoriyada, eləcə də kompüter qarşısında öyrənmək olar və yaxud gedib özün də oxuyub öyrənə bilərsən. Dəyişməyən qiymətləndirmədir. Yəni, sonda yekun attestasiya dediyimiz qiymətləndirmədə həqiqətən də ciddiyyət olmalıdır ki, əgər həmin şəxs o kvalifikasiyaya uyğun bacarıqları nümayiş etdirmirsə ona diplom verilməməlidir. Amma yenə bizim kontekstdə bu illərə bağlıdır. Bizim kontekstdə nə qədər insan ali təhsil müəssisəsinə qəbul olunur və nə qədəri seçdiyi ali məktəbi bitirmir? Avropa və Qərb dövlətlərinə baxsaq, ən yüksək bitirmə faizi bizdədir. Həmin adamlara deyəndə ki, siz bu standarta cavab vermirsiniz, bu zaman çox ciddi narazılıqlar yaranır.

### Təhsil sisteminin ən böyük prioritetlərindən biri məktəbdəki şagirdlərin xoşbəxt olmağıdır

*Cəsarət Valehov:*

*- Siz söhbətiniz zamanı qeyri - müəyyənliyin idarə olunmasına toxundunuz və doğrudan da indiki tədqiqatlarda bu, çox geniş müzakirə olunur. Bunu emosional intellekt məsələsi ilə də bir az əlaqələndirmək istəyirəm. Yəni, söhbət bizim məktəblərimizdə daha çox intellekt əmsalının klassik belə deyək, yöndə ölçülməsindən gedir. Amma emosional intellektin ölçülməsi ilə bağlı da müəyyən boşluqlar var. Şübhəsiz, təkcə bizdə deyil, bütün dünyada bununla bağlı tədqiqatlar var. Bir də emosional tərbiyə məsələsinə toxunmaq istərdim. Bir çox hallarda bizim müəllimlərimizlə şagirdlər arasında emosional bağ düzgün qurulmadığından bu o həmin uşağın təhsilinə də çox ciddi ziyan vurur. Təcrid olunma, emosional sönmə yaranır və s. Həm emosional intellekt, həm də emosional tərbiyə ilə bağlı bizim üzərimizə hansı vəzifələr düşür?*

**Emin Əmrullayev, Təhsil naziri:**

- Müasir təhsildə artıq trend ondan ibarətdir ki, təhsil mexaniki deyil, daha çox psixoloji prosesdir. Yəni bilik bir tərəfdən o biri tərəfə mexaniki köçürülmür.Ona görə öyrədən yox, öyrənən var. Və öyrənən nə qədər öyrənə bilirsə o qədərini mənimsəyir. Ətrafdakı insanlar öz davranışı ilə, resurslarla və s. onun öyrənməsi üçün şərait yaradır. O mənada emosional deyək, rifah ən vacib faktorlardan biridir.

Mənə görə təhsil sisteminin ən böyük prioritetlərindən biri məktəbdəki şagirdlərin xoşbəxt olmağıdır. Biz bir çox hallarda cəmiyyətlə kifayət qədər dialoqda olmalıyıq. Ümumiyyətlə, mühit çox önəmli məsələdir. Öyrənmək üçün ekosistem deyirik, orada müəllim, valideyn var. Orada çox işlər görülməlidir o mənada ki, gözləntilər birinci düzəlməlidir.Yəni ən böyük məsələ gözləntidir. Məsələn, bir misal bizdəndir, bir misal Sinqapurdandır. Mən Sinqapurda olarkən xarici həmkarlarımıza sual verdim ki, siz emosional tərbiyəni necə ölçürsünüz və yaxud da onlar buna daha çox dəyərlər sistemi deyirlər. Onlar bildirdilər ki, biz bir çox şeyi ölçmürük və bu, kifayət qədər normaldır. Ölkənin rəhbəri dünyasını dəyişəndə sinqapurlular böyük bir növbə ilə vida mərasiminə qatılanda biz onda başa düşdük ki, hava çox isti idi. İnsanlara heç nə demədən bir insan digərlərinə su təklif edir və ya gətirirdi. Biz onda başa düşdük ki, təhsil sistemimizdə yəqin ki, hər şeyi düz eləmişik.

Mən özümüzdən də misal gətirmək istərdim. Biz 44 gün davam edən Vətən müharibəsində gördük ki, insanlarımız Qarabağ məsələsində, torpaqlarımızın azadlığı uğrunda həqiqətən də vahid ola bildilər, ərazilərimizi işğaldan azad etmək üçün birləşməyi bacardılar. Gördük ki, biz onlara bunu öyrədə bilmişik.

### Təhsilin məzmunu ilə bağlı böyük müzakirələrə ehtiyacımız var

*Rəhman Hacı:*

*- Mən də bir valideynəm. Qızlarımın ikisi də şagirddir. Məktəbdə ev tapşırıqları çox böyük həcmdə verilir. Bu zaman uşaqların evdə boş vaxtı belə qalmır. Belə ki, uşaqlar məktəbdən qayıdan kimi bütün günü evdə ev tapşırığı ilə məşğuldurlar. Həmin tapşırıqlar o qədər çətin olur ki, hətta repetitorlarla da məşğul olurlar. Bu isə onların çiyinlərinə əlavə bir yük deməkdir və s. Bunun səbəbi nədir? Bu, yeni təhsilin bir hansısa xüsusiyyətidirmi?*

**Emin Əmrullayev,Təhsil naziri:**

**-** Nə qədər yük, nə qədər öyrənmək məsələsi. Məncə buna bir çox faktorlar təsir edir. Bir faktor, valideynlərin özündən gəlir. Valideynlər elə başa düşür ki, uşaqlar nə qədər çox oxusalar daha bilikli olacaqlar. Belə deyək də, bəzi hallarda onları lazımsız yerə yükləyirlər, repetitor yanına göndərirlər. Əslində isə bəlkə uşaq sadəcə olaraq öz boş vaxtında özü-özü ilə qalsa daha çox öyrənər. Və bu öyrənmə başa düşmək ilə bağlıdır. İkinci, müəllimlə bağlıdır. Çünki bir çox hallarda bizim standartlarla olan məsələlər təqdim etmədən asılıdır. Yəni onu çox tez öyrətmək və yaxud onu çox çətin və uzun yolla öyrətmək olar. Bu artıq müəllimin bacarığından asılıdır və ayrı-ayrı siniflər üzrə yəqin ki, fərqlidir. Və nəhayət, üçüncü məsələ, mənə elə gəlir ki, bizim həqiqətən də təhsilin məzmunu ilə bağlı kifayət qədər böyük müzakirələrə ehtiyacımız var. O mənada ki, mən əvvəldə dediyim fikrə qayıdıram, məktəbi yükləməyimizdə əsas mənbə odur ki, bir çox hallarda biz məzmunu uşaqlardan soruşmadan yazırıq.

Şəxsi fikrimi öyrənmək istəyirsinizsə, məncə öyrənmə daha çox, belə deyək, aşağı siniflərdə bir əyləncə, oyun formasında da olmalıdır. Yəni bu formatlara keçmək istəyimiz yenə də daha çox müəllimlərimizlə bağlıdır.

*Cəsarət Valehov:*

*- Emin müəllim çox təşəkkür edirik. Hörmətli həmkarlara da təşəkkür edirik ki,bu gün vaxtın imkan verdiyi qədər təhsillə bağlı müzakirələr aparıldı. Şübhəsiz ki, təhsillə əlaqədar mövzunu kifayət qədər genişləndirmək olar.Yəqin ki, bu bizim sizinlə ilk görüşümz və sonuncu görüşümüz olmayacaq. Tərkiblər ola bilsin ki, dəyişilə bilər. Mənə elə gəlir ki, bugünkü format sizin də ürəyinizcə oldu .*

# Təhsil naziri rektorlarla onlayn görüşüb




**Dekabrın 3-də Təhsil naziri Emin Əmrullayev bir sıra ali təhsil müəssisələrinin rəhbərləri ilə onlayn formatda görüş keçirib.**

Görüşdə ali təhsil sisteminin gələcək inkişaf perspektivləri və bunun üçün mövcud resurslardan istifadə, yeni mexanizm və alətlərin yaradılması müzakirə edilib.

Həmçinin ölkəmizin əmək bazarının tələblərinə uyğun peşəkar kadrların hazırlanması, müxtəlif pillələrdə davamlı keyfiyyətli təhsilin təmin edilməsi, universitetlərin elm və tədqiqat sahəsində inkişaf planları barəsində fikir mübadiləsi aparılıb.

# Dərsliklərdə yeni mərhələ: Sinqapur modeli

## Sinqapurlu mütəxəssislərlə birgə onlayn müzakirə




Dekabrın 5-də Təhsil Nazirliyinin, Təhsil İnstitutunun dəstəyi, “T-Network” təhsil işçilərinin təcrübə və kommunikasiya platformasının təşkilatçılığı ilə “Dərsliklərdə yeni mərhələ: Sinqapur modeli” adlı onlayn müzakirə təşkil olunub.

Azərbaycanlı və sinqapurlu mütəxəssislərin iştirak etdiyi görüşdə dərsliklərin mövcud vəziyyəti və dərsliklərdə Sinqapur təcrübəsi müzakirə edilib.

Müzakirələr vasitəsilə bir sıra beynəlxalq qiymətləndirmə nəticələrində zirvədə olan Sinqapur təhsil sisteminin orta məktəb dərslik təcrübəsi öyrənilib, eləcə də keyfiyyətli dərsliyin meyarlarına, müasir dövrün dərsliklərdə yaratdığı yeni çağırışlara, dərsliklərin mövcud vəziyyətinə toxunulub. Həmçinin Təhsil Nazirliyinin Sinqapurla əməkdaşlıq çərçivəsində təkmilləşdirilməsi planlaşdırılan dərsliklərin gözlənilən təsirləri və yeniliklər barədə fikir mübadiləsi aparılıb.

Təhsil İnstitutunun direktor əvəzi Anar Nağıyev bildirib ki, beynəlxalq qiymətləndirmə proqramlarında ilk sırada olan Sinqapur ilə əməkdaşlıqda özünəməxsus məzmun, təcrübə formalaşdırılacaq.

Nazirlər Kabinetinin Qərarı ilə “Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları”nın təsdiq olunduğunu diqqətə çatdıran Anar Nağıyev qeyd edib ki, bu sənədə əsasən V sinifdə “Təbiət” fənninin tədrisi planlaşdırılır. Bu məqsədlə Sinqapur nəşriyyatı ilə birgə layihənin ilkin mərhələsində xarici mütəxəssislərin konsultasiyası əsasında ibtidai təhsil səviyyəsində təbiət elmlərinin tədrisi üzrə kurikulum, təlim və tədris materialları təhlil olunacaq. Həmçinin beynəlxalq təcrübə və 21-ci əsrin tələbləri araşdırılacaq, müvafiq tövsiyələrə əsasən yenilənmə işləri aparılacaq. Təbiət elmləri üzrə təhsil proqramlarının təkmilləşdirilməsi və dərsliklərin hazırlanması məqsədilə azərbaycanlı fənn mütəxəssislərinə distant təlimlər keçiriləcək.

“T-Network”un tədqiqat və inkişaf üzrə baş mütəxəssisi Qoşqar Məhərrəmovun moderatorluğu ilə davam edən müzakirələrdə Təhsil nazirinin müşaviri Elnur Nəsibov, Təhsil İnstitutunun direktor müavini Ülkər Babayeva, Sinqapurun "Alston" nəşriyyatının icraçı direktoru Wee Chee Sim, "Marshall Cavendish" nəşriyyat evinin Mərkəzi Asiya üzrə bölgə direktoru Khairi Sallehudin Bin Abdullah, fizika müəllimi Yalçın İslamzadə, kimya müəllimi Elmir Manafov, biologiya müəllimi Həsən Həsənov, riyaziyyat müəllimi Vüqar Musayev çıxışlar ediblər.

Müzakirə Təhsil Nazirliyinin rəsmi "Facebook" səhifəsi üzərindən yayımlanıb.

# Noyabr ayı ərzində nostrifikasiya üzrə 322 nəfər müraciət edib

**Cari ilin noyabr ayı ərzində Təhsildə Keyfiyyət Təminatı Agentliyinə xarici ali təhsil müəssisələrindən əldə edilən kvalifikasiyaların tanınması ilə bağlı 322 vətəndaş müraciət edib. Müraciət edənlərdən 219 nəfər barədə müsbət, 103 nəfər bərədə isə mənfi qərar qəbul edilib.**

Mənfi qərarla yekunlaşan nəticələrin böyük əksəriyyətinin səbəbi tədris yükünü ödəmək üçün təhsil aldığı ölkədə tələb olunan minimal müddətin ödənilməməsi və ya tədris dilinin qənaətbəxş hesab edilməməsi olub.

Daxil olan müraciətlərdə MDB-yə üzv olan, Gürcüstan və Türkiyənin ali təhsil müəssisələrində təhsil alanlar üstünlük təşkil edir. Statistikaya əsasən, hüquqşünaslıq, biznesin idarəedilməsi, tibb, təhsil elmləri, iqtisadiyyat və digər ixtisas istiqamətləri üzrə müraciət edənlər daha çoxdur.

Qeyd edək ki, hazırda ölkə ərazisində xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) Nazirlər Kabinetinin 13 may 2003-cü il tarixli, 64 nömrəli qərarı ilə tənzimlənir.

# Azərbaycan regionda ən yüksək nəticə göstərən ölkədir

## TİMSS 2019 — Riyaziyyat və Təbiət Elmləri üzrə Beynəlxalq Qiymətləndirmə Proqramının nəticələri açıqlanıb

**Dünya üzrə TİMSS 2019 beynəlxalq qiymətləndirməsində 64 ölkə üzrə 580 000-dən çox şagird, 310 000 valideyn, 52 000 müəllim, 19 000 məktəb iştirak edib. Azərbaycan üzrə 194 məktəb, 5300 şagird, təxminən 5300 valideyn, 310 müəllim TİMSS 2019 beynəlxalq qiymətləndirməsinə cəlb olunub. Ölkəmiz bu tədqiqatda yalnız IV sinif şagirdləri ilə təmsil olunub.**




Riyaziyyat üzrə tədqiqat nəticələrinə əsasən, ölkəmiz tarixi nəticə əldə edib. Azərbaycan şagirdləri 515 balla bu istiqamətdə tədqiqatda iştirak edən 58 ölkə arasında 28-ci yerdə qərarlaşıb. Azərbaycanın TİMSS 2019-cu il riyaziyyat nailiyyəti TİMSS 2011-ci ilin müvafiq göstəricisi ilə müqayisədə 52 ballıq artımla 463 baldan 515 bala yüksəlib. Bu nəticə ilə Azərbaycan regionda ən yüksək nəticə göstərən ölkə sayılır. Təbiət fənləri üzrə isə ölkəmiz 427 balla 50-ci yerdədir.

Bundan başqa, “mükəmməl” və “yüksək” qiymətləndirmə oriyentirinə (benchmark) çatan şagirdlərimizin sayında əhəmiyyətli artım müşahidə edilib. Belə ki, 2011-ci ildə 21 faiz şagirdimiz riyaziyyat üzrə “mükəmməl” və “yüksək” qiymətləndirmə nailiyyəti göstərmişdirsə, 2019-cu ildə bu nəticə 36 faiz olub.

TİMSS beynəlxalq tədqiqatının keçirilməsində başlıca məqsəd qlobal kontekstdə sistemin nailiyyət meyillərini araşdırmaq, təhsil siyasəti barədə məlumat toplamaq, yenilənmiş siyasətin təsirini qiymətləndirmək, aşağı göstəricisi olan sahələri dəqiqləşdirmək və müvafiq islahatlara təkan vermək, eyni zamanda şagirdlərin riyaziyyat və təbiət elmləri üzrə biliklərinin nəticələri ilə yanaşı öyrətmə və öyrənmə üçün ev və məktəb kontekstləri haqqında vacib məlumatlar əldə etməkdən ibarətdir.

Təhsil Nailiyyətlərinin Qiymətləndirilməsi üzrə Beynəlxalq Assosiasiya tərəfindən 1995-ci ildən etibarən və hər dörd ildən bir (1999, 2003, 2007, 2011, 2015 və 2019) keçirilən TİMSS tədqiqatı IV və VIII sinif şagirdlərinin riyaziyyat və təbiət elmləri üzrə biliklərini qiymətləndirən beynəlxalq bir araşdırmadır. Ümumilikdə, öz təhsil sistemlərinin effektivliyini qiymətləndirmək üçün təxminən 70-ə yaxın ölkə TİMSS-in məlumatlarından istifadə edir və hər qiymətləndirmədə TİMSS-ə yeni ölkələr qoşulur.

Qeyd edək ki, ölkəmiz sonuncu dəfə TİMSS tədqiqatında 2011-ci ildə iştirak edib və yalnız IV sinif şagirdləri ilə təmsil olunub.



RİYAZİYYAT NAİLİYYƏTİ SIRALAMASI

| SIRA | ÖLKƏ | BAL | SIRA | ÖLKƏ | BAL | SIRA | ÖLKƏ | BAL |
|---|---|---|---|---|---|---|---|---|
| 1 | SİNQAPUR | 625 | 21 | DANİMARKA | 525 | 41 | FRANSA | 485 |
| 2 | HONQ-KONQ | 602 | 22 | MACARISTAN | 523 | 42 | GÜRCÜSTAN | 482 |
| 3 | KOREYA | 600 | 23 | TÜRKİYƏ | 523 | 43 | BƏƏ | 481 |
| 4 | TAYVAN | 599 | 24 | İSVEÇ | 521 | 44 | BƏHREYN | 480 |
| 5 | YAPONİYA | 593 | 25 | ALMANİYA | 521 | 45 | ŞİMALİ MAKEDONİYA | 472 |
| 6 | RUSİYA | 567 | 26 | POLŞA | 521 | 46 | MONTENEQRO | 453 |
| 7 | ŞİMALİ İRLANDİYA | 566 | 27 | AVSTRALİYA | 516 | 47 | BOSNİYA-HERSOQOVİNA | 452 |
| 8 | İNGİLTƏRƏ | 556 | **28** | **AZƏRBAYCAN** | **515** | 48 | QƏTƏR | 449 |
| 9 | İRLANDİYA | 548 | 29 | BOLQARISTAN | 515 | 49 | KOSOVO | 444 |
| 10 | LATVİYA | 546 | 30 | İTALİYA | 515 | 50 | İRAN | 443 |
| 11 | NORVEÇ | 543 | 31 | QAZAXISTAN | 512 | 51 | ÇİLİ | 441 |
| 12 | LİTVA | 542 | 32 | KANADA | 512 | 52 | OMAN | 431 |
| 13 | AVSTRİYA | 539 | 33 | SLOVAKİYA | 510 | 53 | SƏUDİYYƏ ƏRƏBİSTANI | 398 |
| 14 | NİDERLAND | 538 | 34 | XORVATİYA | 509 | 54 | MƏRAKEŞ | 383 |
| 15 | ABŞ | 535 | 35 | MALTA | 509 | 55 | KÜVEYT | 383 |
| 16 | ÇEXİYA | 533 | 36 | SERBİYA | 508 | 56 | CƏNUBİ AFRİKA | 374 |
| 17 | BELÇİKA | 532 | 37 | İSPANİYA | 502 | 57 | PAKİSTAN | 328 |
| 18 | KİPR | 532 | 38 | ERMƏNİSTAN | 498 | 58 | FİLİPPİN | 297 |
| 19 | FİNLANDİYA | 532 | 39 | ALBANİYA | 494 | | | |
| 20 | PORTUQALİYA | 525 | 40 | YENİ ZELANDİYA | 487 | | | |



# İkili diplom proqramı üzrə əlavə qəbul

Koreya Respublikasının İnha Universiteti və Bakı Mühəndislik Universiteti arasında bakalavriat pilləsi üzrə birgə təşkil edilən ikili diplom proqramı çərçivəsində inşaat mühəndisliyi və elektrik mühəndisliyi ixtisaslarına 2020-2021-ci tədris ilinin yaz semestri üçün əlavə sənəd qəbulu elan edilir.

Dövlət Proqramı çərçivəsində maliyyələşdirilən ikili diplom proqramının müddəti 4 ildir. Bu müddətin 3 ilinin Bakı Mühəndislik Universitetində, son 1 ilinin isə İnha Universitetində keçirilməsi nəzərdə tutulur. Proqramı uğurla başa vuran tələbələr hər iki ali təhsil müəssisəsinin diplomunu əldə edəcəklər.

İkili diplom proqramı ilə bağlı əlavə məlumat və müraciət qaydaları ilə elan vasitəsilə tanış olmaq mümkündür. Proqrama son müraciət tarixi 31 dekabr 2020-ci ildir.

# Sevgisi Vətən, amalı Zəfər olanlar

**Onlar müəllim idi. Biri 23 il çalışmışdır məktəbdə, o birisi müəllimlik karyerasının hələ başındaydı. Ancaq ikisi də vətənini bütöv görmək istədi. Özünün şəhid olması bahasına başa gəlsə belə, hər biri Qarabağ Azərbaycandır həqiqətini dünyaya çatdırmağa, Qarabağın Azərbaycan olduğunu görmək istəməyənlərə göstərməyə qərarlıydı. Torpağı qanıyla yuyub canıyla bəslədilər. Bu böyük amalın 2783 şəhidindən biri Etiram Hüseynli, o birisi isə Tural Rəhimov oldu.**

## Şəhidlik zirvəsinə yüksələn müəllimlər

## Arzusu şəhidlik olan müəllim



Hələ 3 yaşında olan Həsənin atasının 23 il müəllim işləyəndən sonra döyüşçü kimi şəhid olmaq da varmış nəsibində. Hərbi təlimlərdə yetişmiş, iliyinə qədər döyüşçü olan həmvətənləri ilə çiyin-çiyinə döyüşərək şəhid oldu. Onun yoxluğunu hər kəs öz itkisi sayır - dostu, iş yoldaşı, anası, həyat yoldaşı. Tanıyan hər kəs “Etiram məndən getdi”, - deyir. Əslində hər şəhidi kimi o da Vətəndən getdi - Lənkəran şəhərindəki S.Kazımbəyov adına 6 nömrəli tam orta məktəbin müəllimi Etiram Hüseynli.

Etiram müəllimin şəhid olduğu döyüş şəraiti ilə bağlı bildikləri isə budur: “Qubadlıya döyüşə gedəndə artilleriya atəşinə tutulublar. Yanında olan, ancaq sağ qalan əsgər yoldaşı dedi ki, kəlmeyi-şəhadət deyib, bitirən kimi olduqları maşın vurulub”.

Əslində, o an deyil, bir neçə gün əvvəldən Etiram müəllim evinə qayıdacağını bilib və dostu Cabir müəllimə zəng edib: “Evi təmir olunurdu. İş yarımçıq qalmışdı. Zəng edib mənə dedi ki, 4 günə gəlirəm, hazırlıq görün. Evin təmirini tamamlamağı tapşırdı. Dediyi kimi də oldu, 4 günə gətirdilər onu”.

### Oğlu şəhid olan ANA: “Allah dualarımı eşitdi”

**Anası Ümbülbanu Hüseynova** üçün də Ehtiram müəllimin yeri xüsusi olub: “Oğlumu yox, arxa-da-bilirsən nə istədim?”, Soruşdum nə istədin deyə. Dedi ki, mənə şəhidlik nəsib etməyini istədim”.

### Ehtiram müəllimin öz guşəsi olacaq

Lənkəran şəhərindəki S.Kazımbəyov adına 6 nömrəli tam orta məktəbdə muzey, həmin muzeydə Etiram Hüseynlinin adına xüsusi guşə olacaq. Bu barədə məktəbin direktoru Akif Xalıqov deyib. Onun sözlərinə görə, Vətən müharibəsi başlayana qədər məktəbdə gənclərin çağırışaqədərki hərbi hazırlıq müəllimi Etiram Hüseynlinin qarşısında bu, onların borcu, minnətdarlığıdır. Bununla onlar cəsarətli bir insan kimi tanıdıqları Etiram Hüseynlinin məktəb üçün etdiklərinin heç vaxt unudulmayacağını göstərmək istəyirlər: “Məktəbimizə daim birinciliklər qazandıran müəllim idi. Hərbi oyunlarda bizim məktəb məhz Etiram müəllim sayəsində respublika və rayon üzrə birinciliklər əldə etmişdi. O, şagirdlərə elə ruh verirdi ki, sanki onlar əsl əsgər idilər. Qeyd edim ki, məktəbimizin, Etiram müəllimin yetirmələri olan iki məzunumuz da şəhid olub”.

E.Hüseynli, sadəcə birinciliklər qazandıran yox, həm də məktəbdə vətənpərvərliyin təbliğini ən yaxşı şəkildə quran müəllimlərdən olub: “Hər il son zəng tədbirlərimizdə 3 hərbi geyimli şagirdimiz bayrağı meydana gətirərdi. Bayrağımızın ənənəyə çevrilən bu təntənəli gəlişi hər birimizin qəlbini qürurla doldurardı. Şagirdlərimizin, müəllimlərimizin, valideynlərin tədbirlərimizdə həvəslə izlədiyi səhnə olurdu bu gəliş. Ehtiramın bayraq şeirini səsləndirən səsi isə qulağımdan getmir”.

A.Xalıqovun sözlərinə görə, məktəbdə yaradacaqları hərbi vətənpərvərlik muzeyi sevilən müəllimlərinin adı ilə anılacaq.



### Zəng edib mənə dedi ki...

**Dostu Cabir Məmmədov** S.Kazımbəyov adına 6 nömrəli tam orta məktəbdə işə ondan sonra başlayıb: “Etiram bu məktəbdə məndən əvvəl işləyirdi. Burada yaşadığım 26 ildə yeganə dostum oldu. Ailəvi gediş-gəlişim olan yeganə şəxs idi. Qardaş idi mənə. Ayağım məni nə vaxt bura gətirirdi, özüm də bilmirdim. Bir də onu görürdüm ki, özümdən asılı olmadan çoxdan Etiramı tapıb ona qoşulmuşam”.

Hər kəs kimi Etiram müəllimin də çoxlu arzuları, planları olub. Dostunun böyük arzularından danışan Cabir müəllim deyir ki, o, 2 əsas arzusuna son bir ilin içərisində çatıb: “Ötən il Kərbəlaya getmişdi. Oktyabrın 24-də etdiyi bu ziyarət onun ən böyük arzularından biri idi. İkinci ən böyük arzusuna da bu il oktyabrın 24-də çatdı. Şəhid olaraq. Bu arzu ilə aprel döyüşlərində də cəbhəyə getmək üçün müraciət etmişdi. Bu dəfə bu arzusuna çatdı”.

yağımı, sirdaşımı itirmişəm. Bir oğlum var ondan sonra, ancaq onun yeri ayrı idi. Etiramın itkisinə dözürəm, çünki bir təsəllim var. Tək təsəllim balamın şəhidlik zirvəsinə yüksəlməsidir. Bilirəm ki, onun məqamı yüksəkdir. Döyüşdə olduğu günlərdə hey dua edirdim ki, bircə əsir düşməsin. “Mərddi, qürurludu, balam əsirliyə dözməz”, - deyirdim dua edəndə. Allah dualarımı eşitdi”.

Anası Etiram müəllimin başqa bir arzusundan da danışıb: “Arzusuydu, Şuşaya bayraq sancacaqdı. Sentyabrın 21-də getdi. Ehtiyatda olan zabit idi. Mənə müharibəyə getdiyini deməsi ilə getməsi 2 saat çəkdi. O gündən dəniz kimi ləpə döydü ürəyim. Bir də ayın 24-nə kimi özümə yer tapa bilmədim. Balam ölümündən sonra da məni incitmədi. Xəbəri çıxandan 2 saat sonra gətirdilər. Bala tabutu gözləmək analar üçün çox ağırdı, o da bilirdi bunu yəqin. Balam məni heç gözlətmədi. Xəbəri çıxan kimi gəldi. Ötən il Kərbəlaya getmişdi. Gələndə dedi ki, “ana, imamdan

## Hərbçi müəllim



Şəhid müəllimimiz - Cəlilabad rayonunun Fərzili kənd ümumi orta məktəbin müəllimi Tural Rəhimov.

Cəlilabad rayonunun Söyüdlü kəndində doğulub, Muğan kəndində məktəbə gedib, Fərzili kəndində müəllim işləyib. Ancaq uşaqlığından müəllimliyə yox, hərb sənətinə marağı olub. Böyüdükcə, hərbi həkim olmaq istəyib. Ancaq yolu ATU-ya düşməyib, LDU-dan keçib. Lənkəran Dövlət Universitetində kimya müəllimliyi ixtisasına yiyələnib.

Ali təhsilli olduğu üçün bir il həqiqi hərbi xidmət keçməli idi. Ancaq o, qısamüddətli kurs keçərək leytenant rütbəsi alır və zabit olaraq xidmət keçir. Bu səbəbdən hərbi xidməti 2 il çəkir. 2016-cı ilin aprel döyüşləri başlayanda Tural Rəhimovun hərbi xidməti davam edirdi.

“Hərbi xidmətdə olarkən 10 günlük məzuniyyətə gəlmişdi. Evdə oturub çörək yeyirdik. Birdən zəng gəldi. Telefonda ona döyüşlər başladığını, qayıtmasını söylədilər. Əlini qilağına aparıb “baş üstə”, - dedi və dərhal qalxdı. Xəyalqırıqlığı yaşadığını, döyüşə girə bilmədiyi üçün necə ruhdan düşdüyünü indi də xatırlayır. Bəhruz Rəhimovun sözlərinə görə, hərbi xidmətdən ehtiyata buraxılandan sonra rayona qayıdaraq müəllimlərin işə qəbulu üzrə müsabiqəyə qatılıb və 2016-cı ilin sentyabrından ixtisası üzrə Fərzili kənd ümumi orta məktəbində dərs deməyə başlayıb. Ötən il isə ailə qurub. T.Rəhimov bir qız atası idi. 5 aylıq qızı Qumru T.Rəhimovun qardaşına və vətəninə yeganə əmanətidir: “Oktyabrın 20-də evə zəng vurdu. Hamıyla danışdı, hamıyla halallaşdı. Qızını mənə tapşırdı. Dedi onu qürurlu böyüdüm. Mənəvi dayaq olum. Sıxılmasına imkan verməyim. “Qızıma dayaq ol”, - dedi. 21-dən 22-nə keçən gecə şəhid oldu”.

### “Mən zabitəm, qabaqda getməliydim”

Hər kəsin təhsilli, əksəriyyətinin riyaziyyatçı olduğu bir ailədə böyümüşdü Tural müəllim. Aldığı təhsil və tərbiyə ona vətənini sevməyi öyrətmişdi. Vətən sevgisi tarixə olan marağına təsir etmişdi. Kimya müəllimi tarix ədalətsizliyə biganə qala bilmirdi: “Həmişə qoyurdu xəritəni qarşısına torpaqlarımız üzərində başqaları dövlət qurublar deyirdi. Xocalıdan olan bir dostu var. Həmişə ona təsəlli verib, səni öz torpaqlarına qaytaracağıq, deyirdi. Ən böyük arzusu vətəninin bütövlüyü idi”.

Vətən müharibəsi başlayana qədər T.Rəhimov səbr edib. Sakitliyini pozmadan dövlətin əks-hücumla bağlı qərarını gözləyib və vaxtı çatanda o da Səfərbərlik və hərbi xidmətə çağırış üzrə dövlət xidmətinə müraciət edərək Orduya könüllü qatılmaq istəyini bildirib: “Sentyabrın 27-də Muğan kəndinə şəhid gəldi. İki qardaş gedib şəhidimizi qarşıladıq. Dəfnə qədər oradan ayrılmadıq. Qayıdanda dedi ki, mən zabitəm, ondan qabaqda getməliydim. Odur ki, elə həmin gün ikimiz də Səfərbərlik və hərbi xidmətə çağırış üzrə dövlət xidmətinə müraciət etdik. Zabit olduğu üçün onun müraciəti dərhal qəbul edildi və döyüşlərə qatıldı. Füzuli, Cəbrayıl istiqamətində döyüşlərdə iştirak etdi. Rayonlar geri alındıqca böyük sevinclə zəng edib bütövlüyümüzü bərpa edirik, deyirdi”.

### “Məktəbimizin Turalın adını daşımasını arzulayırıq”

Tural artıq yoxdur. Ancaq vətən əmanəti bir qızı var. Ailəsinin isə Turalın qızı üçün təsəlli olacaq bir arzusu: “Biz Muğan məktəbində oxumuşuq. Qonşu kənddə yerləşən həmin məktəbi bitirmişik ikimiz də. Turalın qızı Qəmər də həmin məktəbdə oxuyacaq. Həmin məktəbin Turalın adını daşımasını arzulayırıq. Məktəbimiz bu yaxınlarda istifadəyə verilib. Müasir modul tipli məktəblərdən biridir. Məktəb Turalın adını daşısa, qızı üçün də mənəvi dəstək olar. Qardaşımın istəyi yerinə yetmiş olar. Qızı atası ilə qürur duyar, özünü atasız hiss etməz”.

### “Yüksəliş” müsabiqəsinə qatıldı, yüksəldi!

Fərzili kənd ümumi orta məktəbin direktoru Fuad Bəhramov deyir ki, məktəblilər arasında vətənpərvərlik hissinin formalaşdırılmasında T.Rəhimovun müstəsna rolu oldu: “Tural müəllim məktəbimizə aprel döyüşlərindən sonra gəlmişdi. Şagirdlərə aprel döyüşləri başlayanda Ordumuzda müşahidə olunan döyüş əzmindən danışırdı. “Yüksəliş” müsabiqəsi başlayanda ikimiz də həmin müsabiqəyə qatıldıq. Yaxşı da nəticə göstərmişdi. Elə yüksəlişə də nail olub şəhidlik zirvəsinə çatdı”.



Məktəb direktoru T.Rəhimovun müəllim kimi də bacarıqlı olduğunu deyib: “Məktəbimizə müsabiqədə uğur qazanıb gəlmişdi. Bacarıqlı, qabiliyyətli, savadlı olmaqla yanaşı, zəhmətkeş idi. Hər məsələdə öndə idi. Biz onunla eyni vaxtda gəlmişik bu məktəbə. Mən direktor təyin olunduğum il o da müəllim kimi fəaliyyətə başlamışdı. Biz gəldiyimiz ilə qədər məktəbin, demək olar ki, nəticələri yaxşı deyildi. Yavaş-yavaş məktəbin nailiyyətləri artmağa başladı. Virtual məktəb platforması işə düşəndə hamıdan öndə Tural müəllim vardı. Fəaliyyətinin nəticəsi olaraq adı 22 yaxşı müəllimin siyahısında yer aldı. Hətta “Təşəkkürnamə” belə aldı”.

Görünən odur ki, Tural müəllim Vətən müharibəsinə qatılaraq şəhidlik zirvəsinə yüksəlməyi seçdi. Yeri cənnət, ruhu şaddır!

**Ruhiyyə DAŞSALAHLI**

İntiqam Cəbrayılov - 60



**Yubileylərlə bağlı yazı yazmaq dəbdədir. Bəzən 50, 60, 70 yaşı tamam olacaq bir adam siyahı tutaraq yoldaşlara özü haqqında kitab çap etdirəcəyini söyləyərək dost-tanışdan xahiş edir ki, onlar da öz ürək sözlərini yazsınlar. Hətta iş o yerə çatır ki, yaxşı tanımadığın, yaxud gözündə heç də ideal olmayan bir insan barəsində də məcburən nə isə yazmalı olursan! Fəqət ha yazdın a! Deyilən söz ürəkdən gəlməlidir. Söz sədəqə deyil ki, çıxarıb verəsən. O, insan deyilən sözə layiq olmalıdır.**

# Ürəkdən deyilən söz

## Elm sahəsində yetirməmlə fəxr edirəm

Həzrəti Məhəmməd peyğəmbərin belə bir hədisi var: "Ən yaxşı sədəqə ürəkdən deyilən sözdür".

Eşidəndə ki, pedaqogika üzrə elmlər doktoru, professor İntiqam Hilal oğlu Cəbrayılovun anadan olmasının 60 illiyi tamam olur, yadıma peyğəmbərimizin həmin qiymətli kəlamı düşdü. İntiqam müəllim haqqında ürəkdən söz deməyə dəyər!

İ.Cəbrayılovla tanışlığım ötən əsrin səksən doqquzuncu ilinə təsadüf edir. O zamanlar bizim institut Azərbaycan Elmi-Tədqiqat Pedaqoji Elmlər İnstitutu adlanırdı. Aspiranturaya qəbul imtahanları başa çatmışdı. Hündür boylu bir gənc mənə yaxınlaşaraq özünü təqdim etdi. Neftçalalı olduğunu, Azərbaycan Dövlət Pedaqoji Universitetində tarix-hüquq-ictimaiyyat ixtisası üzrə ali təhsil aldığını, Neftçala rayonunun Xolqaraqaşlı kənd orta məktəbində tarix müəllimi işlədiyini və aspiranturanın əyani şöbəsinə qəbul olduğunu bildirdikdən sonra utana-utana məndən xəbər aldı: "Akif müəllim, mənim elmi rəhbərim olarsınızmı?"

Onun gözlərinə baxdım, duruşuna, danışığına diqqət yetirdim və razı qaldım. Məlum oldu ki, İntiqam müəllim universiteti də fərqlənmə diplomu ilə bitirib. Aspiranturaya qəbul imtahanlarında da yaxşı qiymətlər alıb, bir şəxsiyyət kimi də müsbət fikir yaradır. Odur ki, tərəddüd etmədən əlini sıxıb:

-Niyə olmuram ki?! - dedim. -Elmi rəhbər olaram.

Onda İntiqam müəllimin 29 yaşı vardı. Çox sevindi. Razılığını bildirdi. Onun dissertasiya mövzusunu "Tarixi abidələr şagirdlərdə milli mənlik şüuru formalaşdırmağın vasitəsi kimi" müəyyənləşdirdik və o, elmi fəaliyyətə başladı. 1994-cü ildə dissertasiyasını müvəffəqiyyətlə müdafiə edərək, pedaqoji elmlər namizədi (hazırda pedaqogika üzrə fəlsəfə doktoru) alimlik dərəcəsi aldı.

Zənnimdə yanılmamışdım. İntiqam Cəbrayılov yaxşı tarix müəllimi və eyni zamanda səriştəli tədqiqatçı idi. İnstitutda çalışa-çalışa ali təhsil müəssisələrində ümumi tarixdən, Azərbaycan tarixindən mühazirələr oxuyur, seminar məşğələləri keçirirdi. O zamanlar mən institutda şöbə müdiri işləməklə yanaşı Bakı Ali Pedaqoji Qızlar Seminariyasında (hazırda Bakı Qızlar Universiteti) elmi işlər üzrə prorektor idim. Mənim zəmanətimlə rektor, professor Ağarəhim Rəhimov İntiqam Cəbrayılovu müəllim kimi işə götürdü. Hazırda o, Təhsil İnstitutunda çalışmaqla yanaşı həmin universitetdə tarix kafedrasının müdiridir.

2001-2008-ci illərdə İntiqam müəllim mənim müdir olduğum Ali və orta ixtisas təhsilinin nəzəri problemləri şöbəsində aparıcı elmi işçi vəzifəsində çalışmağa başladı. Eyni zamanda elmlər doktoru proqramı üzrə şöbənin doktorantı oldu. 2007-ci ildə "Pedaqoji təmayüllü ali məktəblərdə Azərbaycan tarixi tədrisinin nəzəri və praktik problemləri" mövzusunda (təlim və tərbiyənin nəzəriyyəsi və metodikası (tarixin tədrisi metodikası) ixtisası üzrə) dissertasiya işini müdafiə edərək pedaqogika üzrə elmlər doktoru elmi dərəcəsi aldı.

Həmin vaxt mən institutun elmi katibi və həm də institutda fəaliyyət göstərən dissertasiya şurasının da elmi katibi idim.

İllərə nə var ki?! Quş qanadlıdır. Sezilmədən ötüb keçir, xoş xatirələr qoyub gedir. İllər bax beləcə günləri, həftələri, ayları qovub apardı. Gənclik illərimizi də əlimizdən aldı. Bu il mən 70, İntiqam müəllim də 60 yaşına çatdı.

Mən təxminən 40 nəfərə qədər elmlər doktoru və fəlsəfə doktoru yetişdirmişəm. Mənim elmi məsləhətçiliyim və elmi rəhbərliyimlə onlar müdafiə edib ad-san qazanıblar. Bu qırx nəfərin içərisində pedaqogika üzrə elmlər doktoru, professor İntiqam Cəbrayılov öz dəsti-xətti, çalışqanlığı, elmi-pedaqoji fəaliyyəti ilə seçilir. Özü də bir neçə fəlsəfə doktoru və bir nəfər elmlər doktoru yetişdirmişdir.

İntiqam Cəbrayılov Azərbaycan Respublikasının Təhsil İnstitutunda Təhsil nəzəriyyəsi və tarixi şöbəsinin müdiridir. Şöbənin əməkdaşlarının elmi-tədqiqat yaradıcılığı yalnız institut üçün deyil, eyni zamanda, bütün təhsil sahəsindən ötrü dəyərlidir.

İntiqam Cəbyarılovun araşdırmaları aktuallığı ilə seçilir. Diqqət yetirək: milli mənlik şüurunun formalaşdırılması, tarixin tədrisində islam dəyərlərindən istifadə, Azərbaycanın yeni və ən yeni dövr tarixinin tədqiqi və tədrisi məsələləri, ali məktəblərdə Azərbaycan tarixi təliminin müasir problemləri, tarixin tədrisində diyarşünaslıq materiallarından istifadə, Azərbaycan tarixi fənni üzrə təhsil standartlarının hazırlanması, tarix ixtisası üzrə müəllim kadrların hazırlığı məsələləri, Azərbaycan tarixinin tədrisində izah və mühakimə metodlarının rolu, Azərbaycan tarixinin tədrisi keyfiyyətini yüksəltməyin şərtləri, Heydər Əliyev irsində Azərbaycan tarixinin tədqiqi və tədrisi məsələləri, tarix dərsliyinin müasir məzmun problemləri, Azərbaycanın dövlətçilik tarixinin tədrisi problemləri, seminar dərslərinin təşkili, tarixi təfəkkürün metodoloji xüsusiyyətləri, tarix fənninin təlim strategiyaları, Azərbaycan tarixşünaslığı və vətən tarixinin tədrisi məsələləri, şəxsiyyətyönlü təhsil və şəxsiyyətin formalaşdırılması, əlavə təhsilin təşkilinin müasir problemləri, təhsilimizin inkişafında Heydər Əliyev mərhələsi və s.

İntiqam Cəbrayılov öz fəaliyyətini elmi-tədqiqatlar aparmaqla, doktorant və dissertantlara elmi rəhbərlik etməklə, rəsmi opponent olmaqla və eyni zamanda ali məktəblərdə tarix fənnindən mühazirə oxumaqla məhdudlaşdırmır. Fəal ictimai iş aparır, müxtəlif elmi qurumların, təşkilatların işində yaxından iştirak edir.

O, respublikada pedaqoji və psixoloji tədqiqatları əlaqələndirən Pedaqogika və Psixologiya Problemləri üzrə Elmi Şuranın sədri vəzifəsini daşımış (2014-2019-cu illərdə); bir müddət ARTPİ-nin nəzdində fəaliyyət göstərən dissertasiya şurasının elmi katibi, sonrakı illərdə dissertasiya şurasının nəzdindəki elmi seminarın elmi katibi, eyni zamanda Təhsil Nazirliyinin elmi-metodik şurasının pedaqogika və psixologiya bölməsinin elmi katibi, 2000-ci ildə "Azərbaycan məktəbi" jurnalının məsul katibi; bütün bunlarla yanaşı, BDU-nun və ADPU-nun nəzdində müxtəlif vaxtlarda yaradılmış birdəfəlik dissertasiya şuralarının üzvü olmuşdur.

İntiqam müəllim həm də ümumtəhsil məktəbləri üçün tarix və həyat bilgisi fənn kurikulumlarının hazırlanmasında komissiya üzvü kimi də iştirak etmiş, Azərbaycan tarixi və ümumi tarix fənləri standartlarını hazırlayarkən milli məsləhətçi və işçi qrupunun sədri olmuşdur.

Hazırda o, ümumi təhsilin milli standartlarını hazırlayan işçi qrupunun üzvüdür. Tarix fənni üzrə respublika fənn olimpiadasında komissiya üzvü, "İlin müəllimi" müsabiqəsində ekspert olmuşdur.

Bundan başqa, şagirdlər arasında ümummilli lider Heydər Əliyevə həsr olunmuş "Ən yaxşı təqdimat" respublika müsabiqəsində münsiflər heyətinin üzvü; respublika təhsil işçilərinin sentyabr konfranslarında Təhsil Nazirliyinin nümayəndəsi kimi iştirak edir. Bir neçə il tələbələrin respublika konfransında tarix bölməsi üzrə ekspert komissiyasının; Tələbə Qəbulu üzrə Dövlət Komissiyasında (indiki Dövlət İmtahan Mərkəzində) tarix fənni üzrə ekspert komissiyasının üzvü, III ixtisas qrupu üzrə ali məktəblərə tələbə qəbulu imtahanında tarix fənni üzrə rəhbər-eksperti (2007-ci ildə bunkerdə) olmuşdur.

İ.H.Cəbrayılov "Qabaqcıl təhsil işçisi" döş nişanı təltif olunmuşdur.

İntiqam müəllimin zəngin elmi yaradıcılığı vardır. 3 dərs vəsaitinin, 10 monoqrafiya və kitabın, 8 metodik vəsaitin, 48 fənn proqramının, 8 metodik tövsiyənin və 119 elmi məqalənin, 80-a yaxın konfrans materialının və topluda məqalənin müəllifidir.

"Pedaqoji təmayüllü ali məktəblərdə Azərbaycan tarixi tədrisinin nəzəri və praktik problemləri", "Azərbaycan tarixinin tədrisi metodikası", "Şəxsiyyətyönlü təhsil və vətəndaş cəmiyyəti", "Müasir təhsil: axtarışlar və perspektivlər", "Təhsilin modernləşdirilməsinin elmi-nəzəri problemləri" (həmmüəlliflərlə), "Müasir təhsilə innovativ yanaşmalar" (həmmüəlliflərlə), "Müstəqillik dövründə Azərbaycan təhsili: nəzəri və praktik aspektlər" (həmmüəlliflərlə), " Təhsilin təşkilinə müasir pedaqoji yanaşmalar" monoqrafiyalarını; "Azərbaycan tarixi: Ali məktəblər üçün mühazirə mətnləri", "Azərbaycan tarixi: Abituriyentlər üçün dərs vəsaiti" (T.M. Məmmədovla), "Əqli mülkiyyət mədəniyyətinin nəzəri və pedaqoji əsasları: magistrantlar üçün (K.V. Mikayılova ilə) dərs vəsaitlərini nümunə göstərmək mümkündür.

Beləcə pedaqogika üzrə elmlər doktoru, professor İntiqam Hilal oğlu Cəbrayılovun həyatının və elmi-pedaqoji fəaliyyətinin bəzi məqamlarını diqqət mərkəzinə gətirdik.

Bildirirəm ki, elm sahəsində yetirməm olan İntiqam müəllimlə fəxr edirəm. O, mənim ümidlərimi doğrultmuş, pedaqoji elmin zirvəsinə qalxmağa müvəffəq olmuşdur. İntiqam müəllim təcrübəli ali məktəb müəllimi, istedadlı metodist və pedaqoq, səriştəli tədqiqatçıdır!

Bir Allah şahiddir ki, yuxarıda bütün dediklərim ürəkdən gələn sözlərdir, həqiqətdir!

Mən pedaqogika üzrə elmlər doktoru, professor İntiqam Hilal oğlu Cəbrayılovun 60 illik yubileyini salamlayır və üzümü ona tutaraq deyirəm:

60 yaşın mübarək, İntiqam müəllim!!!

**Akif ABBASOV,**

**Azərbaycan Respublikasının Təhsil İnstitutunun elmi katibi, pedaqogika üzrə elmlər doktoru, professor, Əməkdar müəllim**

**"AZƏRBAYCAN MÜƏLLİMİ"**

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov 538-21-55

**Mühasibatlıq** 539-67-74
**Reklam və elanlar** 539-20-77 (tel./faks)

**Ünvan:** AZ-1100, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə 23 M, Mətbuat Evi, 5-ci mərtəbə

Qəzet "Azərbaycan müəllimi"nin kompüter mərkəzində yığılır və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet hər həftənin cümə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı 5 saylı "Mətbuat şöbəsi"
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

"Azərbaycan müəllimi" qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003, **Tiraj** 6803, **Sifariş** 2829

**Məsul növbətçi:** O.Mustafayev

# Etibarsız sayılır

**Bakı şəhər** 157 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Əliyev Tural İntiqam oğluna verilmiş B-315765 nömrəli orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Oğuz rayonu** şəhər 2 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Əyyubova (Qədirova) Gülüstan Elxan qızına verilmiş A-247347 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Oğuz rayon** şəhər 1 nömrəli tam orta məktəbi 2010-cu ildə bitirmiş İslamzadə Çinarə Yaşar qızına verilmiş B-722874 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft Akademiyası (indiki ADNSU)** tərəfindən 2011-ci ildə İsmayılov Şəhriyar Kazım oğluna verilmiş B-217470 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 276 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş Əliverdiyev Rəşad Ağaverdi oğluna verilmiş BN-480604 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Pedaqoji Kadrların İxtisasının Artırılması və Yenidən Hazırlanması Baş İnstitutu** tərəfindən 2000-ci ildə Atakişiyeva Fəridə Ənvər qızına verilmiş N-002476 nömrəli yenidən hazırlanma haqqında diplom itdiyi üçün etibarsız sayılır.

**Ağdam rayon** 95 nömrəli tam orta məktəbi 2015-ci ildə bitirmiş Osmanlı Cavidan Xaliq oğluna verilmiş A-450673 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy şəhər** 3 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Salmanov Pərviz Müşfiq oğluna verilmiş A-150724 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Qızılhacılı qəsəbə 2 nömrəli tam orta məktəbin IX sinfini 2010-cu ildə bitirmiş Əliyeva Səadət Əvəz qızına verilmiş A-935557 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 26 nömrəli tam orta məktəbi 2008-ci ildə bitirmiş İsmayılova Aynur Sərvər qızına verilmiş A-312798 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

Bakı İdarəetmə və Texnologiya Kolleci tərəfindən 2013-cü ildə Quliyev Həbib Şahin oğluna verilmiş AA-029116 nömrəli diplom və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**D.Bünyadzadə adına Xalq Təsərrüfatı İnstitutu** (indiki Azərbaycan Dövlət İqtisad Universiteti) tərəfindən 1976-cı ildə Avramenko (Stukalina) Olqa İqorevnaya verilmiş A-I-014376 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Təzəkənd kənd tam orta məktəbi 2006-cı ildə bitirmiş Əhmədov Ziya Xudaverən oğluna verilmiş A-395531 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir şəhər** 5 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Xalıqov Taleh Ələsgər oğluna verilmiş B-109913 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**İmişli rayon Cəfərli kənd** 1 nömrəli tam orta məktəbi 2003-cü ildə bitirmiş İbrahimova Pərvin Vilayət qızına verilmiş A-601223 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2020-ci ildə Böyükkişiyev Cavid Nizami oğluna verilmiş C-087778 nömrəli bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Ağcabədi rayon** Xocavənd kənd 2 nömrəli tam orta məktəbi 2000-ci ildə bitirmiş Arazov Pərviz Sahib oğluna verilmiş 417730 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**C.Naxçıvanski adına Hərbi Liseyi** 2009-cu ildə bitirmiş İsgəndərov Tural Telman oğluna verilmiş B-636739 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**M.Ə.Rəsulzadə adına Bakı Dövlət Universitetinin** (indiki BDU) nəzdindəki İxtisasartırma və Yenidənhazırlanma İnstitutu tərəfindən 1994-cü ildə Xanlarov Bəşir Xanlar oğluna verilmiş 0092 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan Dövlət Universiteti** tərəfindən 2011-ci ildə Şirəlizadə Tural Asif oğluna verilmiş B-241850 nömrəli fərqlənmə bakalavr diplomu və əlavəsi itdiyi üçün etibarsız sayılır.

**Astara şəhər** 2 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş Əlizadə Nurlan Mirağa oğluna verilmiş A-039451 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayon** Ovçulu kənd tam orta məktəbin IX sinfini 2004-cü ildə bitirmiş Məmmədrzayeva (Mustafayeva) Mahnur Süleyman qızına verilmiş A-091414 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Kürdəmir şəhər** 2 nömrəli tam orta məktəbi 1992-ci ildə bitirmiş Ağayeva Əzizə Ələkbər qızına verilmiş 192663 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**Naxçıvan şəhər** 12 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Əlisoy Rəhman Yasin oğluna verilmiş C-043057 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.

**İsmayılı rayon** Mican kənd tam orta məktəbi (İsmayıllı şəhər 7 nömrəli tam orta məktəb) 2008-ci ildə bitirmiş Cərullayeva (Hacıyeva) Nərgiz İlham qızına verilmiş B-520292 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

Təhsil Nazirliyinin kollektivi nazirliyin Maliyyə şöbəsinin əməkdaşı Fəridə Əliyevaya anası

**SİTARƏ CABBAROVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Təhsil Nazirliyindən Əsgər Quliyev ailəsi ilə birlikdə Nazirliyin maliyyə şöbəsinin baş məsləhətçisi Fəridə Əliyevaya anası

**SİTARƏ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı veirlər.

---

Azərbaycan Dillər Universitetinin ümumi dilçilik kafedrasının əməkdaşları professorlar A.Məmmədov, F.Veysəlli, H.Zərbəliyev, dosentlər Ə.Quliyev J.Qəribova, S.Köcərli, C.Babayev,A.Qəmbərova, A.Hacıyeva kafedranın professoru

**YAQUB KƏRİM OĞLU KƏRİMLİNİN**

vəfatından kədərləndiklərini bildiriri və mərhumun ailəsinə yaxınlarına dərin hüznlə başsağlığı verirlər.

---

Bakı şəhər 258 nömrəli tam orta məktəbin direktoru Sədaqət Hüseynova və pedaqoji kollektivi məktəbin hərbi rəhbəri

**MÖHTƏŞƏM MƏHƏRRƏMOVUN**

vaxtsız vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

# "Qarabağ Azərbaycandır!"




## Şahmat üzrə onlayn beynəlxalq turnir başa çatıb

5-6 dekabr 2020-ci il tarixlərində Təhsil Nazirliyinin təşəbbüsü ilə keçirilən "Qarabağ Azərbaycandır!" şahmat üzrə onlayn beynəlxalq turnirə yekun vurulub.

Turnirdə Avropanın 15, Asiyanın 13, Afrikanın 1, Şimali Amerikanın 1, Cənubi Amerikanın 3 olmaqla ümumilikdə 33 ölkədən 160 iştirakçı, o cümlədən dünyanın 17 yaşadək top şahmatçılarından 5 beynəlxalq qrossmeyster, 10 beynəlxalq usta, 17 Fide ustası, 26 ustalığa namizəd mübarizə aparıb.

Ölkəmizi bu turnirdə dünya və Avropa birinciliklərinin qalibləri olmaqla ümumilikdə 51 şahmatçı təmsil edib.

"Təhsil" Respublika İdman Mərkəzinin təşkilatçılığı ilə 17 yaşadək şahmatçılar arasında keçirilən beynəlxalq yarışın qalibi həmyerlimiz Xəzər Babazadə olub. O, turnirin final mərhələsində 11 oyundan 8,5 xal toplayaraq I yeri tutub. II yerə 17 yaşadək şahmatçılar arasında dünyanın ən yüksək reytinqli şahmatçısı, Özbəkistan təmsilçisi Nodirbek Abusattarov, III və IV yerlər üzrə eyni xal toplamalarına baxmayaraq, əlavə əmsallara görə III yerə belaruslu şahmatçı Denis Lazavik, IV yerə həmyerlimiz Əhməd Əhmədzadə layiq görülüb.

Turnirin əsasnaməsinə uyğun olaraq "Ən yaxşı azərbaycanlı oyunçu" nominasiyasında I yerin sahibi (ümumi hesabda VI) Aydın Süleymanlı, II yerin sahibi (ümumi hesabda IX) Məhəmməd Muradlı, III yerin sahibi (ümumi hesabda XV) Şiroğlan Talıbov olub. 12 yaşadək şahmatçılar arasında Türkiyə təmsilçiləri Ediz Gürəl I, Bora Yarar II, həmyerlimiz Cahandar Azadəliyev III yeri tutub. Qızlar arasında Qazaxıstan təmsilçisi Assel Lezbekova I yerə, həmyerlimiz Mələk İsmayıl II yerə, Gürcüstan şahmatçısı Pipiya Yekaterina III yerə layiq görülüb.

Turnirin əsasnaməsinə uyğun olaraq qaliblərə diplom və pul mükafatı təqdim olunacaq.

*www.chess.com* internet portalı üzərindən təşkil olunan turnirin oyunları "Youtube" kanalı üzərindən canlı olaraq şərh edilib. Turnir haqqında geniş məlumat həftəiçi "İdman Azərbaycan" kanalında "Şahmat klubu" verilişində veriləcək.

Qeyd edək ki, onlayn platforma üzərindən təşkil olunan "Qarabağ Azərbaycandır!" şahmat üzrə onlayn beynəlxalq turnirinin keçirilməsində məqsəd Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasının qeyd edilməsi, dünyada koronavirus (COVİD-19) pandemiyasının geniş yayılması ilə əlaqədar tətbiq olunan karantin dövründə məktəblilərin asudə vaxtlarının səmərəli təşkili, müasir texnologiyalardan istifadə etməklə şahmatçıların yarış təcrübələrinin artırılmasından ibarət olub.

# 200 Azərbaycan vətəndaşı üçün Macarıstanda təhsil

## Hökumətlərarası Təqaüd Proqramına həsr olunmuş onlayn vebinar keçirilib




**Dekabrın 4-də 2021-2022-ci tədris ilində Hökumətlərarası Təqaüd Proqramı çərçivəsində Macarıstanda təqaüd proqramına həsr olunmuş onlayn vebinar keçirilib. Təhsil Nazirliyinin İctimaiyyətlə əlaqələr sektorunun müdiri Cəsarət Valehov vebinarı açaraq Macarıstanla Azərbaycan arasında təhsil əlaqələrinin yüksək səviyyədə olduğunu bildirib.**

Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Tural Əhmədov Macarıstanla Azərbaycan arasında təhsil əlaqələrinin tarixi barədə məlumat verib. O, qeyd edib ki, proqramın məqsədi azərbaycanlı gənclərə Macarıstanda təhsil almaq imkanlarının yaradılmasıdır. 2014-cü ildə iki ölkənin hökumət başçılarının birgə siyasi iradəsi nəticəsində biz bu imkanı hazırda gerçəkləşdirə bilirik. Son 6 tədris ili ərzində minə yaxın Azərbaycan vətəndaşına Macarıstanın aparıcı ali təhsil müəssisələrində təhsil almaq imkanı yaradılıb. İki ölkə arasında olan dostluq münasibətləri və strateji tərəfdaşlıq bu imkanın miqyasını artırıb və buna görə Macarıstan tərəfə minnətdarlığımızı bildiririk.

T.Əhmədov Macarıstanın ali təhsil mühiti barədə məlumat verib. Qeyd edib ki, bu ölkənin ali təhsil müəssisələri öz hesabına təhsil almaq istəyən vətəndaşlarımız üçün çox səmimi bir təhsil məkanına çevrilib. Universitetlərin beynəlxalq sıralamasına (Şanxay, Times Highers) baxsaq Macarıstan ali təhsil müəssisələrinin beynəlxalq reytinqlərdə təmsil olunduğunu görə bilərik. Bu da bir faktordur ki, tələbələrimiz istər macar, istər ingilis, hətta digər dillərdə tədris olunan müxtəlif ixtisaslara sahib olmaq imkanı əldə edirlər.

Macarıstanın beynəlmiləlləşmə prosesinə kifayət qədər ciddi şəkildə diqqət ayırdığını deyən T.Əhmədov əlavə edib ki, statistik məlumatlara baxsaq, 2011-ci ildə Macarıstanda 18-20 min civarında əcnəbi tələbə vardısa, indi bu rəqəm 40 mini aşmaqdadır. "Sevindirici hal ondan ibarətdir ki, ən çox tələbə ilə təmsil olunan ölkələr sırasına baxsaq Azərbaycan ilk beşlikdədir. Bütün bu faktorları nəzərə alaraq hər iki ölkənin, həm dövlət başçıları səviyyəsində olan isti münasibətlərdən irəli gələrək bu hədəfləri daha da irəli aparmaq niyyətindəyik. Növbəti tədris ili üçün də belə bir imkan yaradıldığını nəzərə alaraq vətəndaşlarımızı öncədən məlumatlandırmaq qərarına gəldik".

Daha sonra Macarıstan səfirliyinin təhsil məsələləri üzrə nümayəndəsi Mihaly Graber ölkəsində təhsil imkanlarına dair təqdimat edib. M. Graber ölkəsi tərəfindən həyata keçirilən Təqaüd Proqramı (Stipendium Hungaricum Program) barədə məlumat verib. Proqram 2013-cü ildə təsis olunub və Macarıstanla Azərbaycan arasında mövcud ikitərəfli əməkdaşlıq razılaşmalarına əsaslanır. Bu, tələbələrin (beynəlxalq) tam ali dərəcə və ya qısamüddətli təhsili üçün təqaüd proqramıdır. Proqram ildə bir dəfə onlayn ərizə proseduru, 28 qəbul müəssisəsi, müxtəlif dillərdə 465 təhsil proqramını nəzərdə tutur. Macarıstan tərəfdən ödənişsiz təhsil, qanunvericiliyə əsasən aylıq təqaüd, yataqxanada yaşayış, tibbi sığorta təmin edilir. Təhsil yerinə gediş-gəliş xərcləri tələbələrin özləri tərəfindən qarşılanır.

M. Graber Azərbaycandan müraciət edən ərizəçilər üçün aşağıdakı təhsil sahələrinin təklif olunduğunu bildirib:

**1.** Tam əyani bakalavr (BS/BSc) və magistratura təhsili (Ma/MSc): Kənd təsərrüfatı və su idarəetməsi, təbiət elmləri və davamlı inkişaf, turizm, mühəndislik, İKT, iqtisadiyyat, biznes və menecment.

**2.** Tam doktorantura təhsili: istənilən sahədə

**3.** Macar hazırlıq kursu: hazırlıq kursunu uğurla başa vurduqdan və ali məktəbə daxil imtahanını uğurla keçdikdən sonra macar dilində tam əyani təhsil proqramlarına müraciət etmək olar.

Daha sonra çıxış edən Təhsil Nazirliyinin Xaricdə təhsil və əcnəbi tələbələrlə iş sektorunun müdiri Müjdat Həsənov qeyd edib ki, artıq bir neçə ildir ki, Macarıstanla təhsil proqramı həyata keçirilir. Macarıstan tərəfin ayırdığı təqaüdlərdən azərbaycanlı gənclər yararlanır. O əlavə edib ki, indi bizim cəmiyyətin, Vətən müharibəsindən sonrakı gəncliyimizin əsas qayələrindən biri də daha yaxşı təhsil almaq və vətənə töhfələr verməkdir. Bu baxımdan, biz gənclərə daha yaxşı təhsil imkanları verməliyik və bu proses hazırda davam etdirilir. Hökumətlərarası Təqaüd Proqramı çərçivəsində Macarıstanla yeni sazişin imzalanmasının gözlənildiyini deyən M.Həsənov təqaüd proqramına qəbul şərtləri, müraciət forması, müsahibə mərhələsində iştirak üçün əsas meyarlar barədə təqdimat edib.

Daha sonra nazirliyin Beynəlxalq əməkdaşlıq şöbəsinin məsləhətçisi Elçin Hüseynov tələb olunan sənədlər barədə məlumat verib.

Daha sonra feysbuk istifadəçilərinin çoxsaylı sualları cavablandırılıb.

Qeyd edək ki, Təqaüd proqramı Azərbaycan Respublikası Təhsil Nazirliyi və Macarıstan İnsan Resursları Nazirliyi arasında 2017-ci il dekabrın 7-də imzalanmış "2018-2020-ci illər üzrə iş proqramı"na əsasən həyata keçirilir. Proqram Azərbaycan vətəndaşlarına müəyyən olunmuş ixtisaslar üzrə Macarıstanda təqaüd hesabına təhsil almaq imkanı yaradır.

Proqram çərçivəsində Macarıstan tərəfindən hər il 200 nəfər Azərbaycan vətəndaşı üçün təqaüd ayrılacağı nəzərdə tutulub. Tələbələrin təqaüd proqramına qəbulu ilə bağlı Macarıstan tərəfinin (TPF) yekun qərarının 2021-ci ilin iyun-iyul ayları ərzində təqdim olunması gözlənilir.

**Oruc MUSTAFAYEV**

# "Virtual təhsilə dəstək" mövzusunda onlayn tədbir

"Virtual məktəb" layihəsinə dəstəyin təşviqi məqsədi ilə Təhsil Nazirliyi tərəfindən özəl sektorun iştirakı ilə onlayn tədbir keçirilib.

Tədbirdə Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva, Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin rəisi Vüsal Xanlarov və 20-dən çox şirkətin rəhbər və rəsmi nümayəndələri iştirak ediblər.

Nazir müavini Məhəbbət Vəliyeva ölkənin ən iri milli onlayn platforması olan "Virtual məktəb"in məqsədi və imkanları barədə məlumat verib. Nazir müavini qeyd edib ki, hazırda layihə üzrə platformada ümumi istifadəçi sayı şagirdlər üzrə 1,3 milyondan çox, müəllimlər üzrə 113 min, aktiv istifadəçilərin sayı isə 1 milyona çatıb. Bununla yanaşı, layihənin əhatə dairəsi hər gün genişlənsə də, bəzi ailələrdə zəruri texnologiyaların olmaması səbəbindən təhsilalanlar və təhsilverənlər distant tədrisə qoşulmaqda çətinliklərlə üzləşirlər. Məhəbbət Vəliyeva bu kimi problemlərin qismən aradan qaldırılması üçün dövlət və özəl qurumlar arasında davamlı tərəfdaşlığın qurulmasının əhəmiyyəti olduğunu vurğulayıb.

Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsinin rəisi Vüsal Xanlarov "Virtual məktəb" barədə geniş təqdimatla çıxış edərək platformanın üstünlükləri və mövcud yeniliklər barədə danışıb. Eyni zamanda bildirilib ki, platforma özəl və dövlət sektor nümayəndələri ilə əməkdaşlığa açıqdır və artıq bir sıra qurumlarla səmərəli əməkdaşlıq qurulub. Belə ki, layihə çərçivəsində "Azercell" şirkəti 30 000 müəllim, "AzEduNet" şirkəti isə 10 000 müəllim üçün aylıq internet paketləri təmin edib, "BestComp" şirkəti 1000 kompüter ianə edərək cəbhəyanı təhsil müəssisələrində internet kompüter mərkəzlərinin yaradılmasına dəstək verib. "Enginet", "Bakcell" və "İTE" şirkətləri müəllimlər üçün xüsusi endirimli internet bağlantısı tarifi təqdim edib. "Crocusoft", "Unibank" və "İnteqral" şirkətləri isə bu yaxınlarda uzun müddətli kredit şərtləri və endirimli qiymətlərlə təhsilalanlar və təhsilverənlər üçün avadanlıq həlləri təqdim edəcəklər. İdarə rəisi layihə üzrə Təhsil Nazirliyinin digər maraqlı şirkətlərlə də əməkdaşlığa açıq olduğunu bildirib.

Daha sonra layihə çərçivəsində əməkdaşlıq əlaqələrinin genişləndirilməsi istiqamətində tədbir iştirakçıları ilə müzakirələr aparılıb.

# "BİR" tələbə-könüllülər "İlin könüllüsü" nominasiyasına layiq görülüblər

Azərbaycan Respublikasının Gənclər Fondunun və Azərbaycan Könüllü Təşkilatları İttifaqının birgə təşkilatçılığı ilə Beynəlxalq Könüllülər Gününə həsr olunan "Azərbaycan Könüllülərinin III Həmrəylik Forumu" keçirilib.

Onlayn təşkil edilən forumun rəsmi hissəsində Təhsil naziri Emin Əmrullayevin könüllülərə müraciəti nümayiş etdirilib. Müraciətdə Təhsil naziri könüllülük, onun dəyərləri, həmçinin Təhsil Nazirliyinin "Bir" tələbə-könüllü proqramının fəaliyyətini vurğulayıb.

Forum çərçivəsində "BİR" tələbə-könüllülər müxtəlif kateqoriyalar üzrə "İlin könüllüsü" kimi təltif olunublar. Sosial könüllülük üzrə - Cəfər Mahmudov, pandemiya dövründə könüllülük üzrə - Mehdi Əzimzadə, müharibə dövründə könüllülük üzrə - Mənsurə Qurbanzadə, ekoloji könüllülük üzrə - Əsli Məhərrəmova "İlin könüllüsü" nominasiyasına layiq görülüb.

Qeyd edək ki, Təhsil Nazirliyi "Bir" tələbə-könüllü proqramı milli könüllü platforması kimi 24 000-dən çox tələbə-könüllü üzvə malikdir. Tələbələrin şəxsi inkişafı və asudə vaxtının səmərəli dəyərləndirilməsi üçün 6 istiqamətdə fəaliyyət göstərən proqram tərəfindən indiyədək 600-dən çox yerli və beynəlxalq tədbirə könüllü və təşkilati dəstək verilib. BİR könüllü olmaq istəyən tələbələr *www.konullu.edu.az* saytı vasitəsilə qeydiyyatdan keçə və proqrama qoşula bilərlər.